12 yanvar 2022 №2 (1875)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident yeni səfirlərin etimadnamələrini qəbul edib



Azərbaycanla Koreya Respublikası arasında uzun illərdir müxtəlif sahələrdə fəal əməkdaşlıq həyata keçirilir. Koreyanın yüksək səviyyəli rəsmilərinin Azərbaycana səfərləri münasibətlərimizin inkişafına töhfə verir.

Prezident İlham Əliyev bu fikri yanvarın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsini qəbul edərkən deyib.

Dövlət başçısı həmin gün Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın da etimadnaməsini qəbul edib.

səh. 2

## Türk Dövlətləri Təşkilatı Qazaxıstana dəstəyini bir daha təsdiqləyib




Yanvarın 11-də Türk Dövlətləri Təşkilatı (TDT) Xarici İşlər Nazirləri Şurasının Qazaxıstanda baş verən son hadisələrlə bağlı növbədənkənar iclası keçirilib.

Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlunun sədrliyi ilə videokonfrans formatında gerçəkləşən iclasda Qazaxıstan Baş nazirinin müavini və xarici işlər naziri Muxtar Tileuberdi, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev, Özbəkistanın xarici işlər naziri Abdulaziz Kamilov, Türkmənistanın Baş nazirinin müavini və xarici işlər naziri Raşid Meredov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto və Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev çıxış ediblər.

davamı səh. 2-də

## "Öyrədərək öyrənirəm"

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Öyrədərək öyrənirəm" adlı ustad dərsləri layihəsi həyata keçirilir.

Yanvarın 10-da Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü, Azərbaycan Dövlət Pantomim Teatrının baş rejissoru Bəxtiyar Xanızadənin iştirakı ilə layihənin ilk tədbiri gerçəkləşib. Üç mərhələdə və mövzuda nəzərdə tutulan birinci ustad dərsi "Həqiqi hisslərlə yaşamaq azdır" mövzusuna həsr olunub.

səh. 5



## İncəsənət əsərlərinin onlayn auksionu

Yanvarın 10-da "Auction Baku" MMC-nin təşkilatçılığı, Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə incəsənət əsərlərinin onlayn auksionu başlayıb.

səh. 3

# "Min bir gecə" yenidən Neva sahilində

### Sankt-Peterburq şəhərində Fikrət Əmirovun yubiley ilinin ilk tamaşası

Bu il dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyi ölkəmizdə və xaricdə təntənə ilə qeyd olunacaq. Dahi musiqiçinin 100 illiyi UNESCO-nun yubileylər proqramına daxil edilib.

Fikrət Əmirovun dünya musiqi xəzinəsinə bəxş etdiyi ən böyük inci "Min bir gecə" baletidir. Müxtəlif ölkələrin səhnələrini fəth edən balet 2020-ci ildə həmvətənimiz, Rusiyanın Əməkdar incəsənət xadimi, Mariinski Teatrının Primorsk filialının (Vladivostok şəhəri) balet truppasının bədii rəhbəri Eldar Əliyevin quruluşunda yenidən səhnələşdirilib və müxtəlif şəhərlərdə, festivallarda nümayiş olunur.

22-23 yanvar tarixlərində Sankt-Peterburq şəhərində, Mariinski Teatrının yeni səhnəsində Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun anadan olmasının 100 illiyi münasibətilə "Min bir gecə" baleti nümayiş olunacaq. Tamaşa Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Mariinski Teatrının Primorsk truppasının ifasında təqdim ediləcək.

"Min bir gecə" baleti yeni quruluşda Mariinski Teatrının bədii rəhbəri və baş direktoru, dünya şöhrətli dirijor Valeri Gergiyevin təşəbbüsü ilə səhnələşdirilib. Tanınmış baletmeyster Eldar Əliyevin quruluş verdiyi tamaşa ilk dəfə 2020-ci ilin 14 avqustunda



"Mariinski. Vladivostok" V Beynəlxalq Festivalının açılış günü göstərilmiş və əsər festival çərçivəsində ümumilikdə dörd dəfə nümayiş olunmuşdu.

Bundan sonra, 2021-ci ilin yanvarında Rusiyanın əsas balet səhnəsində – Mariinski Teatrının özündə Fikrət Əmirovun sənət incisi dörd gecə alqışlandı. "Min bir gecə" Mariinski Teatrının Primorsk filialının Sankt-Peterburqa qastrol proqramı çərçivəsində 15, 16, 17, 18 yanvar tarixlərində təqdim edildi və şəhərin ən əlamətdar mədəni hadisələrindən birinə çevrildi.

2021-ci ilin mayında Kazan şəhərində keçirilən Rudolf Nureyev adına XXXIV Beynəlxalq Balet Festivalı da Eldar Əliyevin quruluşunda "Min bir gecə" baleti ilə açılmışdı.

Beləliklə, Fikrət Əmirovun yubiley ilinin ilk böyük sənət nümayişi də Sankt-Peterburq şəhərində gerçəkləşəcək. Böyük bəstəkarın ecazkar musiqisi məşhur həmyerlimizin xoreoqrafik quruluşunda yenidən Mariinski Teatrının səhnəsini fəth edəcək. Onu da qeyd edək ki, tamaşanın səhnə tərtibatında rəssam Pyotr Okunev rəngkarlıq dekorasiyalarını videoproyeksiyalarla uzlaşdırıb.

## Tarix və mədəniyyət abidələrinin qorunması, bərpası və təbliği

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti 2021-ci ildəki fəaliyyətinin yekunları və 2022-ci il üzrə nəzərdə tutulmuş planlara dair məlumatları media mənsubları ilə bölüşdü. Yanvarın 7-də Milli Xalça Muzeyində keçirilən mətbuat konfransında Dövlət Xidmətinin rəisi Azad Cəfərli bu barədə ətraflı söhbət açdı.

Dövlət Xidmətinin rəisi bildirdi ki, ötən il ərzində tarix və mədəniyyət abidələrinin qorunması, bərpası, təbliği, onların istifadəsinə nəzarət baxımından bir sıra işlər həyata keçirilib. Bu sahədə həm beynəlxalq platformalarda, həm də ölkə səviyyəsində görülən işlər davam etdirilib.

Dövlət Xidmətində aparılan struktur islahatları ilə bağlı danışan Azad Cəfərli diqqətə çatdırdı ki, dövlət başçısı tərəfindən 22 oktyabr 2019-cu il tarixində Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında fərman imzalanıb. Fərmana uyğun olaraq, Bakı, Gəncə, Şabran, Salyan və Qəbələ regional idarələri fəaliyyətə başlayıb. Bu idarələrin yaradılmasında məqsəd tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət nəzarətinin gücləndirilməsi, idarəçilikdə səmərəliliyin təmin edilməsi, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarix və mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkili, müasir texnologiyanın və aparıcı beynəlxalq təcrübənin tətbiqi, eləcə də tarix və mədəniyyət abidələrinin geniş miqyaslı tədqiqini təmin etməkdir.

davamı səh. 3-də

## "Euronews" Azərbaycanın xalq mahnıları və rəqsləri haqqında süjet hazırlayıb

Kökləri qədim zamanlara gedən Azərbaycan xalq rəqsləri çox rəngarəngdir. Onları həm şıltaq gözəlliyi, həm də ifadəli atletizmi ilə fərqləndirmək olar.

Bu fikirlər "Euronews" televiziyasının Azərbaycanın xalq mahnıları və rəqsləri haqqında süjetində yer alıb.

Süjetdə xalq rəqslərinin Azərbaycan mədəniyyətində xüsusi yer tutduğu vurğulanır. Qeyd edilir ki, 1938-ci ildə yaradılan Azərbaycan Dövlət Rəqs Ansamblı dünyanın müxtəlif ölkələrində çıxış edib. Ansambl geyim, saç düzümü, qrim detallarına diqqətlə yanaşması ilə seçilir.



Rəqs müəllimi Saina Əhmədovanın sözlərinə görə, qadınların rəqs etdiyi havalar bir çox xüsusiyyətləri ilə fərqlənir. Burada bədənin yuxarı hissəsinin hərəkəti, baxışlar xüsusi əhəmiyyət kəsb edir: "Stəkanlarla rəqs bu özəlliklərdən biridir. Qızlar şərbətlə doldurulan stəkanla elə rəqs etməlidir ki, bir damcı da olsun, su yerə tökülməsin".

Ansamblın rəhbəri Rüfət Xəlilzadə kişilərin rəqsi barədə danışaraq deyib: "Azərbaycanda kişi rəqsi dağın başında qanadlarını pərvazlandıraraq uçmağa hazırlaşan qartalı simvolizə edir. Rəqqaslar oynayarkən bəzi elementləri barmaqlarının ucunda edir. Bu, çox çətindir. Ümumiyyətlə, kişi rəqsləri əsl idman yarışmasını xatırladır. İştirakçılar sanki bir-birilərilə bəhsə girərək daha yuxarı tullanmağa, hərəkətləri daha sürətli etməyə çalışırlar".

## 114 yaşlı "Leyli və Məcnun"

1908-ci il yanvarın 12-də (yeni təqvimlə 25 yanvar) Bakıda, Hacı Zeynalabdin Tağıyevin teatrında (indiki Akademik Musiqili Teatrın binası) dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası səhnələşdirilib. Bununla Üzeyir bəy Azərbaycanda peşəkar bəstəkarlıq sənətinin təməlini qoydu. "Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü – muğam operası meydana gəldi. Bu, müsəlman Şərqində ilk opera idi.



"Leyli və Məcnun" operasının ilk tamaşasına görkəmli aktyor və rejissor Hüseyn Ərəblinski quruluş vermişdi. Dirijor yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev idi.

səh. 6

## Səhnə, sənət kamı – həyat nakamı

Azərbaycan səhnəsinin unudulmaz sənətkarlarından söz düşəndə ilk xatırlananlardan biri də Əməkdar artist Ülvi Rəcəbdir. Aktyor sənət və həyat üçün ötəri hesab olunan yaşda, ömrünün 35-ci ilində repressiya qurbanına çevrilsə də, zəngin sənət mirası yaradıb, sənətin şöhrət zirvəsinə yüksəlib.

Ülvi Rəcəb 20 yaşında Tiflis Azərbaycan Teatrının aparıcı aktyorlarından olub. Yaratdığı obrazlar lirik, romantik üslubu ilə tamaşaçıların diqqətini çəkib. Teatrda tamaşaya qoyulan "Otello"da Otello, "Qaçaqlar"da Dərviş , "Şeyx Sənan"da Şeyx, "İblis"də İxtiyar, "Arşın mal alan"da Soltan bəy və başqa rollarda çıxış edib.

səh. 6

"Qarabağnamə" tamaşası nümayiş olunacaq



səh. 5

Bölgələrdəki mədəniyyət müəssisələrində "Şuşa İli" münasibətilə tədbirlər keçirilir

səh. 4




"Qızıl qlobus"un sahibləri bəlli olub

səh. 8

## Yazıçı Vidadi Babanlı “Şərəf” ordeni ilə təltif olunub

Tanınmış yazıçı, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Vidadi Babanlı “Şərəf” ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev yanvarın 8-də bununla bağlı sərəncam imzalayıb.

95 yaşlı yazıçı Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə təltif edilib.

Vidadi Yusif oğlu Babanlı 1927-ci il yanvarın 5-də Qazax rayonunun Şıxlı (indiki Muğanlı) kəndində doğulub. Yazıçının “Vicdan susanda”, “Ana intiqamı”, “Ömürlük cəza”, “Gəlin”, “İnsaf nənə”, “Müqəddəs ocaq” və s. əsərləri oxucular tərəfindən böyük maraqla qarşılanıb.

## Sərhəddəki gərginliyə görə Ermənistan rəhbərliyi məsuliyyət daşıyır

Yanvarın 11-i günorta saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçumuz, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nəzərov Ayaz Azər oğlu şəhid olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən müvafiq tədbirlər nəticəsində qarşı tərəf susdurulub. Müdafiə Nazirliyi şəhid olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi də Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonu istiqamətində növbəti təxribatı ilə bağlı məlumat yayıb.

“Ermənistan tərəfinin hərbi təxribatları davam etdirməsini qətiyyətlə pisləyirik. İki dövlət arasında münasibətlərin normallaşması istiqamətində addımlar atmaq əvəzinə, dövlət sərhədində növbəti qanlı təxribatı törətməklə Ermənistanın hərbi-siyasi rəhbərliyi bölgədə vəziyyətin gərginləşdirilməsinə görə bilavasitə məsuliyyət daşıyır” – deyə XİN-in bəyanatında vurğulanır.

## Xalça Muzeyində “Ənənəni yaşadanlar”



Azərbaycan Milli Xalça Muzeyinin “Ənənələri yaşadanlar” layihəsi davam edir. Yanvarın 11-də layihənin toxuculuq sənətinə həsr olunan növbəti təqdimatı gerçəkləşib.

Canlı videobağlantı vasitəsilə baş bərpaçı-toxucu Şəkər Ələsgərova iştirakçıları dəstərxanın toxunma prosesi ilə tanış edib. O, xalça məmulatını ərsəyə gətirməyi və unudulmaqda olan qədim toxuculuq texnologiyasının sirlərini izləyicilərlə bölüşüb.

## Mədəniyyət və İncəsənət Universitetinin “Youtube” kanalı yaradılıb

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) “ADMİU TV” “Youtube” kanalının təqdimatı keçirilib.

ADMİU-nun rektoru, professor Ceyran Mahmudova tədbiri açaraq universitet həyatının geniş ictimaiyyətə çatdırılması baxımından internet kanalının önəmindən danışıb.

“ADMİU-nun təhsil həyatı, ictimai və mədəni fəaliyyəti çox genişdir. Fikrimcə, bu fəaliyyətimizi böyük auditoriyaya da çatdırmaq lazımdır. Bizim konsertlərimizi, filmlərimizi, tədbir və tamaşalarımızı yalnız universitetdaxili kollektiv görür. Ancaq bizim respublikanın hər yerində, eləcə də dünyanın bir çox ölkələrində yaşayan, fəaliyyət göstərən məzunlarımız var. Onlar da məzunu olduqları universitetlə maraqlanırlar. “Youtube” kanalı vasitəsilə hər kəs bu layihələri izləmək imkanı əldə edəcək”, - deyə rektor bildirib.

Prorektorlar Gülşən Əliyeva-Kəngərli, Sədaqət Əliyeva, kafedra müdirləri Əli Əmirli, Rafiq Quliyev, Əməkdar müəllim Məryəm Babayeva, dosent Sevil Kərimova, Xalq artisti Teyyub Aslanov, “SABAH” qruplarının rəhbəri Bella Talıbova, Teatrşünaslıq kafedrasının müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Cəfərov, tələbələr Yusif Cəfərbəyli və Xanım Abdullayeva çıxış edərək internet kanalının tələbələr üçün də stimul olacağına inandıqlarını bildiriblər.

## “Azərbaycanın alovları”

### “Əl-Riyad” qəzeti Yanardağ haqqında



Səudiyyə Ərəbistanının “Əl-Riyad” qəzetində “Yanardağ” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu haqqında məqalə dərc edilib. Jurnalist Əbdürrəhman Sultanın “Azərbaycanın alovları” sərlövhəli məqaləsində Abşeron rayonunun Məmmədli kəndində yerləşən Yanardağ təbiət abidəsindən bəhs edilir.

Müəllif yazır: “Azərbaycana səfərimin ilk günündə dostlarıma müraciət edərək məni Yanardağa aparmağı xahiş etdim. Müxtəlif ölkələrdə maraqlı abidələr, möcüzələr və onların elmi əsasları ilə maraqlanan bir insan kimi bu məkan məni cəlb edirdi. Bakıdan təxminən yarım saata qədər yol gedəndən sonra bu əsrarəngiz qoruğa çatdıq. Bu sirli yer hələ 800 il əvvəl məşhur səyahətçi Marko Polonun diqqətini cəlb edib. Yanardağ sayəsində Azərbaycan “Odlar yurdu” kimi tanınıb”.

Ərazidə qoruğun yaradıldığını diqqətə çatdıran müəllif bildirir ki, təbiət abidəsi Bakıya gələn əcnəbi turistləri xüsusilə cəlb edir.

## Prezident yeni səfirlərin etimadnamələrini qəbul edib

### İşğaldan azad edilmiş ərazilərdə vəziyyət və həyata keçirilən bərpa işləri barədə də danışılıb

Azərbaycanla Koreya Respublikası arasında uzun illərdir müxtəlif sahələrdə fəal əməkdaşlıq həyata keçirilir. Koreyanın yüksək səviyyəli rəsmilərinin Azərbaycana səfərləri münasibətlərimizin inkişafına töhfə verir.

Prezident İlham Əliyev bu fikri yanvarın 10-da Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonqun etimadnaməsini qəbul edərkən deyib.

Dövlət başçısı iqtisadi sahədə əməkdaşlığa toxunaraq, Koreyanın bir çox şirkətinin ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən infrastruktur və inşaat layihələrində uğurla iştirak etdiklərini vurğulayıb. Birgə investisiya sahələrinin, ixrac-idxal əməliyyatlarının artırılmasının, insanlar arasında təmasların genişləndirilməsinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Səfir Li İn-Yonq son 30 il ərzində Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığın ölkələrimizin potensialına uyğun olaraq daha da möhkəmləndirilməsinin vacibliyini bildirib və diplomatik fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində Koreya şirkətlərinin mümkün iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.

***

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə beynəlxalq hüququn aliliyini və Qoşulmama Hərəkatının təməlini təşkil edən “Bandunq prinsipləri”ni daima rəhbər tutur.

Prezident İlham Əliyev bu sözləri isə Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdelouahab Osmanın etimadnaməsini qəbul edərkən diqqətə çatdırıb.



Xatırladaq ki, “Bandunq prinsipləri” – dövlətlərin dinc yanaşı yaşaması və beynəlxalq münasibətlərin on əsas prinsipi 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən beynəlxalq konfransda (Asiya və Afrika ölkələrinin iştirakı ilə) qəbul edilib. 1961-ci ildə əsası qoyulan Qoşulmama Hərəkatı (hazırda 120 ölkəni birləşdirir) “Bandunq prinsipləri”ni fəaliyyətində rəhbər tutur. Azərbaycan 2019-cu ildən Qoşulmama Hərəkatına sədrliyi həyata keçirir. Əlcəzair də bu təşkilatın fəal üzvlərindən biridir.

Prezident Azərbaycan-Əlcəzair əlaqələrinin yaxşı səviyyədə olduğunu qeyd edərək, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində fəal əməkdaşlığın həyata keçirildiyini vurğulayıb. İqtisadi sahədə fəaliyyətin intensivləşdirilməsi və ticarət dövriyyəsinin artırılması imkanlarının araşdırılmasının zəruriliyini bildirən İlham Əliyev, həmçinin insanlar arasında fəal təmasların təşviqinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini qeyd edib.

Dövlət başçısı 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərinin işğal altında qalmasına və Ermənistanın bu ərazilərdə törətdiyi dağıntılara, Azərbaycanın mədəni irsinə qarşı vandalizm əməllərinə toxunaraq regional əməkdaşlığı nəzərdə tutan postmünaqişə dövrünə aid sülh gündəliyinin həyata keçirildiyini bildirib.

Səfir Abdelouahab Osman Əlcəzair Prezidenti Abdelmacid Tebbunun salamlarını Azərbaycan Prezidentinə çatdırıb. İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Əlcəzair dövlətinin başçısına çatdırmağı xahiş edib.

## Türk Dövlətləri Təşkilatı Qazaxıstana dəstəyini bir daha təsdiqləyib

*əvvəli səh. 1-də*

“Azərbaycan qardaş Qazaxıstandakı mövcud vəziyyəti dərin narahatlıqla izləyir. Ötən həftə baş verən hadisələrin insan tələfatı ilə nəticələnməsi xüsusilə təəssüf doğurur... Azərbaycan Qazaxıstanda vəziyyətin tezliklə normallaşmasının və qanunun aliliyinin bərpasının tərəfdarıdır. İctimai asayişə xələl gətirən, fundamental insan hüquqlarına və vətəndaşların azadlıqlarına təhdid törədən gücdən qanunsuz istifadə və zorakılığa heç bir bəraət qazandırıla bilməz və buna görə də qətiyyətlə pislənməli və rədd edilməlidir. Biz Qazaxıstan xalqının və hökumətinin müdrikliyinə və qabiliyyətinə inanırıq. Biz inanırıq ki, Qazaxıstan müstəqilliyini bərpa etdikdən sonra əldə etdiyi əlamətdar nailiyyətləri riskə atmadan vəziyyətdən çıxacaq və sağlam düşüncə qalib gələcək”, – deyə xarici işlər naziri Ceyhun Bayramov çıxışı zamanı bildirib.

Azərbaycan XİN başçısı vurğulayıb ki, bu baxımdan Türk Dövlətləri Təşkilatının üzərinə mühüm vəzifə düşür. Təşkilat üzv dövlətlər arasında həmrəylik üzərində qurulub və bu çətin zamanda qazax bacı və qardaşlarımızın yanında olmaq bizim ümumi məsuliyyətimizdir.

Təşkilatın mövcud vəziyyətdən çıxış yolu tapmaqda Qazaxıstana lazım gəldikdə yardım etməyə hazır olduğunu ifadə edən 6 yanvar 2022-ci il tarixli bəyanatını alqışlayan Ceyhun Bayramov “bugünkü görüşü və qəbul edəcəyimiz birgə bəyanatı Qazaxıstan xalqı və hökuməti ilə açıq-aydın həmrəylik nişanəsi kimi yüksək dəyərləndiririk”, – deyə əlavə edib.

Qazaxıstanda sülh və sabitliyin qorunması, bölgə və Türk Dövlətləri Təşkilatı üçün olduğu kimi, qlobal sülhün qorunması üçün də xüsusi əhəmiyyət daşıyır. Qazax xalqı mövcud problemlərin həlli istiqamətində birlik və bərabərlik nümayiş etdirmək iqtidarındadır.




Nazir qeyd edib ki, dərin köklü etnik, dini və tarixi qardaşlığa malik ölkələr kimi Azərbaycan və Qazaxıstan həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində yüksək səviyyəli strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Azərbaycan yalnız bizim dövlətlərimiz və xalqlarımızın xeyrinə deyil, həmçinin bölgədə və ondan kənarda təhlükəsizlik, sabitlik və əməkdaşlığa ciddi şəkildə töhfə verəcək bu münasibətlərin daha da dərinləşdirilməsi məqsədinə sadiqdir.

Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iclasda çıxışı zamanı ifadə edib.

Türkiyə XİN rəhbəri vurğulayıb ki, biz Qazaxıstana güvənir və inanırıq: “Türk dünyası olaraq Qazaxıstanın yanında olacağıq. Allahın izni ilə sabitlik və rifah yolunda birlikdə yürüyəcəyik”.

Çıxışlardan sonra Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının adından bəyanat qəbul olunub.

Bəyanatda təşkilatın üzvü olan Qazaxıstana güclü dəstək və həmrəylik bir daha təsdiqlənib. Regionda və onun hüdudlarından kənarda sabitlik və təhlükəsizlik üçün həyati əhəmiyyət kəsb edən Qazaxıstanda sülh və sabitliyin vacibliyi vurğulanıb. İnsan həyatı üçün təhlükə yaradan, ictimai asayişi pozan və əmlaka ziyan vuran zorakılıq və vandalizm aktları pislənilib. Qazaxıstan hakimiyyətinin ölkədə ictimai asayişi və vəziyyətin normallaşmasını sürətlə bərpa etmək imkanlarına inam vurğulanıb. Beynəlxalq hüququn fundamental qayda və prinsiplərinə riayət edilməsinin vacibliyi qeyd edilib, Qazaxıstan hökumətinin Konstitusiya quruluşunu devirməyə yönəlmiş terrorçulara, ekstremistlərə və cinayətkarlara qarşı həyata keçirdiyi antiterror əməliyyatları dəstəklənib. Eyni zamanda “Türk Dünyasına Baxış 2040” sənədinin milli və beynəlxalq çağırışlar qarşısında koordinasiya, əməkdaşlıq və qarşılıqlı yardım üçün bələdçi olduğuna diqqətə çəkilib. Təşkilat hazırkı böhrandan çıxmaq üçün, lazım gələrsə, Qazaxıstan xalqını və hökumətini dəstəkləməyə hazır olduğunu bir daha təsdiqləyib. Habelə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qardaş Qazaxıstan xalqının güzəranının və rifahının daha da yaxşılaşmasına yönəlmiş islahat gündəliyi dəstəklənib.

Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurası bu məsələdə sıx əməkdaşlığı və məsləhətləşmələri davam etdirməyi qərara alıb.

## Misirdə Dünya Gənclər Teatrının təqdimatı

Misirdə keçirilən Dünya Gənclər Forumu çərçivəsində müasir gəncliyin bəşəriyyətin aktual problemlərini incəsənətin dili ilə ifadə edəcək Dünya Gənclər Teatrının təqdimatı olub. Şarm əl-Şeyx şəhərində keçirilən foruma müxtəlif ölkələrdən gənclər qatılıb.




Təqdimatda Misir Prezidenti Əbdülfəttah əl-Sisi də iştirak edib.

Şarm əl-Şeyx Konqres Mərkəzində nümayiş olunan Dünya Gənclər Teatrının ilk tamaşası bütün insanlığı narahat edən silahlı münaqişələr, COVİD-19 pandemiyası, bu fəlakətlərlə mübarizədə gənclərin həmrəyliyinə həsr olunub. Tragikomediya janrında səhnələşdirilmiş tamaşada gənclərin ictimai-siyasi xadimlərə, liderlərə yeni qlobal çağırışlar fonunda daha qətiyyətli addımlar atmaq, dünyada ədaləti və insanların bərabərliyini təmin etmək, yoxsullara yardım göstərmək çağırışları yer alıb. Tamaşada, həmçinin texnologiyanın ən son nailiyyətlərindən də istifadə olunmaqla interaktiv səhnələr təqdim edilib.

Tamaşa forum iştirakçılarının alqışları ilə qarşılanıb. Dünya Gənclər Teatrının yaxın gələcəkdə dünya turuna çıxacağı bildirilir.

## “Teknofest Azərbaycan”da müxtəlif müsabiqələr keçiriləcək

26-29 may tarixində Bakıda “Teknofest Azərbaycan” tədbirinin keçirilməsi nəzərdə tutulur.

Festivalın təşkilatçıları qismində Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyənin Sənaye və Texnologiya Nazirliyi, “Türkiyə Texnologiya Komandası” (T3 Fondu) çıxış edir.

“Teknofest Azərbaycan” çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, “Smart Qarabağ” hakatonu (proqramçıların layihə marafonu), “Take Off” Azərbaycan Startap sammiti və “Rocket League” videooyunu üzrə Avropa kiber idman kuboku təşkil olunacaq. Tədbirin sərgi hissəsində tərəfdaş qurumların məhsul və həllərinin, eləcə də gənclərin hazırladıqları prototiplərin və STEM layihələrin nümayiş olunması, açıq səma altındakı statik ərazidə isə pilotsuz uçuş aparatlarının nümayişi nəzərdə tutulur.

Festival çərçivəsində Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin “Türk ulduzları” və “Solo Türk” aerobatika komandalarının nümunəvi pilotaj uçuşları təşkil olunacaq.

# Tarix və mədəniyyət abidələrinin qorunması, bərpası və təbliği

## Ötən ilin yekunları və bu il üçün nəzərdə tutulan işlər

*əvvəli səh. 1-də*

Qeyd edildi ki, regional idarələrin kadr potensialı qabaqcıl təcrübə əsasında müsahibələr vasitəsilə formalaşdırılıb. Eləcə də qazi və şəhid ailələrinin üzvü olan 23 nəfər Dövlət Xidmətinin əməkdaşları sıralarına qoşulub. Hazırda regional idarələrin maddi-texniki bazalarının formalaşdırılması istiqamətində işlər davam etdirilir.

**110 abidənin pasportu, 72-sinin mühafizə zonası təsdiq edilib**

Azad Cəfərli diqqətə çatdırdı ki, mədəni irsin qorunması işinin kompleks şəkildə təşkil edilməsi məqsədilə abidələrin pasportlaşdırılması və mühafizə zonalarının müəyyənləşdirilməsi işləri il ərzində davamlı şəkildə həyata keçirilib. Hesabat dövründə 110 tarix-mədəniyyət abidəsinin pasportu və 72 abidənin mühafizə zonası təsdiq edilib. Hazırda daha 155 abidənin pasportu, abidələrin mühafizə zonaları üzrə isə 108 layihənin hazırlanması üzərində iş aparılır. Pasportu hazırlanan abidələrin 42-si və mühafizə zonası hazırlanan abidələrin isə 10-u işğaldan azad edilmiş ərazilərdə yerləşən tarix-mədəniyyət abidələrinin payına düşür.

Bildirildi ki, Dövlət Xidmətinin fəaliyyətinin əsas istiqamətlərindən biri də daşınmaz tarix və mədəniyyət abidələrində bərpa-konservasiya işlərinin aparılmasıdır. Şabran rayonunda yerləşən Çıraqqala abidəsində bərpa-konservasiya işləri davam etdirilib. Qazax rayonunda Müəllimlər Seminariyası binasının bərpasına başlanılıb. Daha 10 abidədə bərpa-konservasiya işlərinin aparılması məqsədilə layihə-smeta sənədlərinin hazırlanması üçün müvafiq addımlar atılıb.

Ötən ilin martında "Çıraqqala-Şabran", "Qədim Şəmkir şəhəri" və "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət qoruqlarının əsasnamələri təsdiq olunub.





Abidələrin mühafizəsi mövzusuna toxunan Dövlət Xidmətinin rəisi vurğuladı ki, abidələrin mühafizə zonalarının zəbt edilməsi və özbaşına tikinti işlərinin aparılmasının qarşısı alınıb, abidələrin qəsdən korlanması və ya məhv edilməsi ilə bağlı aşkara çıxan 7 faktla bağlı hüquq mühafizə orqanlarına, 12 fakt barəsində isə yerli icra hakimiyyəti orqanlarına müraciət olunub. Ağdaş rayonunda Qarabəy karvansarası, Bərdə rayonunun Lənbəran və Uğurbəyli kəndlərindəki məscidlərdə təsdiq edilmiş layihə olmadan aparılan işləri misal göstərmək olar.

**Beynəlxalq ekspertlərin işğaldan azad edilmiş ərazilərə səfərləri**

İşğaldan azad olunmuş ərazilərdəki mədəniyyət obyektlərinin monitorinqi, ilkin inventarlaşdırılması və mühafizə tədbirləri barədə söz açan Azad Cəfərli dedi ki, monitorinqlər zamanı dövlət qeydiyyatında olan 403 tarix-mədəniyyət abidəsinə baxış keçirilib. Dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 162 obyektin monitorinqi aparılıb. Monitorinqlər Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Ağdam, Tərtər, Laçın və Kəlbəcər rayonlarını əhatə edir.

Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış 706 tarix və mədəniyyət abidəsi var. Bu abidələrdən 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidə, 17-si dekorativ-tətbiqi sənət nümunəsidir.

Dövlət Xidmətinin rəhbəri beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətə toxunaraq diqqətə çatdırdı ki, Mədəniyyət Nazirliyinin nümayəndə heyəti UNESCO-nun "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasına tərəf dövlətlərin 14-cü iclasında, Haaqa Konvensiyasının İkinci Protokoluna tərəf dövlətlərin 9-cu iclasında, eyni zamanda Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması üzrə Komitənin 16-cı iclasında iştirak edib. İclaslarda Konvensiyasının implementasiya ilə bağlı məsələlər, əməkdaşlıq istiqamətləri, Konvensiyasının icrası barədə milli hesabatların təqdim olunub və digər məsələlərin müzakirə edilib. Azərbaycan "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının İkinci Protokolu üzrə Komitənin üzvü seçilib.

Ölkə ərazisində olan bir sıra abidələrin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi üçün sənədlər hazırlanıb. Beynəlxalq ekspertlərdən ibarət nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərə səfərləri təşkil olunub. Səfər çərçivəsində ekspert qrupu Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan, Tərtər, Xocavənd, Kəlbəcər rayonlarında yerləşən erməni vandalizminə məruz qalmış daşınmaz tarix və mədəniyyət abidələrinə baxış keçirib və müvafiq məlumatlar toplanılıb. Həmçinin BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anhel Moratinosun ölkəmizə səfəri çərçivəsində Füzuli və Ağdam şəhərlərinə səfər təşkil edilib. Qonaq işğalçı Ermənistanın törətdiyi vəhşiliklər, eləcə də tarixi, dini və mədəni abidələrimizin vandalizmə məruz qalması barədə ətraflı məlumatlandırılıb.

Ötən il Dövlət Xidmətinin fəaliyyətində Zəfər Gününün birinci ildönümünə həsr edilmiş "Böyük Qayıdış: mədəniyyətin dirçəlişi" adlı beynəlxalq konfrans da yaddaqalan olub. Tədbirdə yerli və xarici qonaqlar, ekspertlər, eləcə də dövlət rəsmiləri və diplomatik korpusun nümayəndələri iştirak ediblər.

**Şuşa abidələrinin "Bərpa təlimatı"**

Azad Cəfərli bildirdi ki, 2022-ci ilin Prezident İlham Əliyev tərəfindən "Şuşa İli" elan edilməsi qarşımızda yeni məqsədlər qoyub. Ötən il ərzində Şuşa şəhərində yerləşən abidələrin elektron xəritəsi tərtib edilib. Şuşada aparılan monitorinq çərçivəsində 45 tarixi abidənin üzərinə məlumat lövhələri quraşdırılıb.

Eyni zamanda Şuşa şəhərində dövlət qeydiyyatına alınmış tarix-memarlıq abidələrinin kataloqu ərsəyə gətirilib. Hazırda "Şuşa – Azərbaycan mədəniyyətinin paytaxtı" adlı nəşr üzərində iş aparılır.

Bundan əlavə, Şuşa şəhərindəki abidələrin "Bərpa təlimatı" hazırlanıb. Sənəddə işğalın nəticələri və səbəb olduğu dağıntılar, abidələrin monitorinqi və inventarlaşdırılması, abidələrin bərpası və regenerasiyası, abidələrin identifikasiya və lokalizasiya məlumatları, tikililərin tipologiyası və xüsusiyyətləri, abidələrin bərpa statusu və risk faktorları, onların qorunması üçün təcili mühafizə tədbirləri, tarix-memarlıq tədqiqatları və memarlıq tipologiyası öz əksini tapıb.

Qeyd edildi ki, "İşğaldan azad olunmuş şəhər və rayonlarda tarix-mədəniyyət abidələrinin qorunması və bərpası ilə əlaqədar "yol xəritəsi" hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin müraciəti əsasında Şuşa, Ağdam və Füzuli rayonlarının Baş planı ilə bağlı müvafiq rəy də hazırlanıb aidiyyəti üzrə göndərilib. Eyni zamanda Xocavənd rayonunda "Azıx-Tağlar mağara düşərgələri" Dövlət Tarix-Arxeoloji Qoruğunun təsis edilməsi məsələsi ilə bağlı müzakirələr aparılıb və müvafiq sənədlər razılaşdırılması məqsədilə aidiyyəti üzrə təqdim edilib.

O da bildirildi ki, ötən il Dövlət Xidməti tərəfindən Ağdam şəhərində Üzərliktəpə arxeoloji abidəsinin, Cümə məscidinin, İmarət abidələr kompleksinin, Qiyaslı kənd məscidinin bərpası ilə bağlı konsept və layihələr də hazırlanıb, Üzərliktəpə yaşayış yerində arxeoloji qazıntıların aparılması təşkil olunub.

Mətbuat konfransında KİV nümayəndələrinin müxtəlif sualları cavablandırıldı.

**L.Azəri**

# İncəsənət əsərlərinin onlayn auksionu keçirilir

Yanvarın 10-da "Auction Baku" MMC-nin təşkilatçılığı, Azərbaycan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə incəsənət əsərlərinin onlayn auksionu başlayıb.

Auksion ölkəmizdə mədəniyyət və incəsənət sahəsində biznes münasibətlərini yaratmaq, alıcı və satıcılar arasında əlaqə qurmaq, art biznes sahəsində rəqabət qabiliyyətliliyi gücləndirmək, ölkənin iqtisadi inkişafında yaradıcı sənayesinin rolunu artırmaq məqsədilə həyata keçirilir.

Onlayn auksionda 13 əl işi – Mikayıl Abdullayevin "Mənzərə", Mahmud Rüstəmovun




"Glamours genetics n-:2", Rəşad Cabbarovun "Pişiklə söhbət", Fərman Qulamovun "Dəniz yaxınlığında", Bəhruz Kuulun "Cənnətdən bir parça", Səmədağa Cəfərovun "Ağ çiçəklər", Namiq Məmmədovun "Dua", Həmzə Abdullayevin "Liman", Bəxtiyar Yusufovun "Acı bibər", Əliabbas Kərimovun "Gəmi", Mirazər Abdullayevin "Sirr", İlham Mirzəyevin "Ana məhəbbəti" və Vüqar Əlinin "Nəğmə" əsərləri hərraca çıxarılıb.

İncəsənət əsərlərinin onlayn auksionu 15 gün davam edəcək.

**Lalə**

# Din xadimlərinin Vatikana səfəri

## Papa Fransiskin rəsmi dəvəti ilə

Yanvarın 12-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyətinin Vatikana səfəri başlayır.

QMİ-nin mətbuat xidmətindən verilən məlumata görə, nümayəndə heyətinə Azərbaycan dağ yəhudiləri icmasının başçısı Melix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Arximandrit Aleksiy Nikonorov və Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekti Yepiskop Vladimir Fekete daxildirlər.

Roma Katolik Kilsəsinin başçısı Papa Fransiskin rəsmi dəvəti ilə həyata keçirilən səfər Vatikanla Azərbaycan arasında qarşılıqlı əlaqələrin genişlənməsi fonunda dinlərarası dialoq və əməkdaşlıq müstəvisində yeni imkan və perspektivlər açır. Vatikanın bu əməkdaşlıqda maraqlı olduğunu Papa Fransisk 2016-cı ildə Bakıya səfəri zamanı Azərbaycandakı dini konfessiya rəhbərləri ilə görüşündə ifadə edib, qarşılıqlı səfərlərin önəmini vurğulayıb.

Azərbaycan nümayəndə heyətinin Vatikan dövlətinin başçısı və dünya katoliklərinin lideri – Roma Papası Fransisk, habelə Müqəddəs Taxt-Tacın bir sıra ali rəsmiləri, o cümlədən dövlət katibi Kardinal Pietro Parolin, Dinlərarası dialoq üzrə Pontifik Şurasının rəhbəri Kardinal Migel Ayuso, Xarici dövlətlər ilə əlaqələr üzrə Katib Arxiyepiskop Riçard Qallaher ilə görüşləri planlaşdırılır. Görüşlər zamanı işğaldan azad olunmuş Azərbaycan torpaqlarında dini-mənəvi irsin bərpası, məscid, kilsə və məbədlərin yenidən qurulması sahəsində görülən işlər barədə ətraflı bəhs olunması, Azərbaycan həqiqətləri və multikultural həyat tərzi barədə fikir mübadiləsi nəzərdə tutulur.

Qafqaz Müsəlmanları İdarəsinin Vatikanla dini-mənəvi əlaqələri uzun illərdir inkişaf edir. QMİ-nin dinlərarası dialoq və əməkdaşlığa dair beynəlxalq tədbirlərində Vatikan rəsmiləri ilə əməkdaşlıq təcrübəsi mövcuddur. Azərbaycanın dini konfessiya rəhbərləri Vatikana səfər müddətində ölkəmizin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın nəcib təşəbbüsü ilə Vatikanda Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən misilsiz əhəmiyyətə malik layihələrlə də tanış olacaqlar.

Səfər yanvarın 17-dək davam edəcək.

# Tanınmış tarzən və xanəndənin xatirəsi yad olunacaq

Yanvarın 13-də Beynəlxalq Muğam Mərkəzində (BMM) tanınmış tarzən və xanəndə Şirulla İmanovun (1909-1976) anadan olmasının 113-cü ildönümü münasibətilə xatirə gecəsi keçiriləcək.

Vaxtilə Akademik Opera və Balet Teatrının solisti olmuş Şirulla İmanov sənətə tarzən kimi gəlib. Şirulla İmanovun bacarığını yüksək qiymətləndirən Üzeyir Hacıbəyli opera tamaşalarında tar ifaçılığını ona həvalə edib. Sonra o özünü xanəndə kimi də sınamaq qərarına gəlir. Bir neçə ildən sonra arzusu reallaşır. Opera və Balet Teatrı və Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi fəaliyyət göstərir. M.Maqomayevin "Şah İsmayıl", Z.Hacıbəyovun "Aşıq Qərib", Ü.Hacıbəylinin "Şeyx Sənan" operalarında sənətkar həm vokal, həm də tar ifaçısı kimi tamaşaçıların rəğbətini qazanır...

Xatirə gecəsində Ş.İmanovın həyat və yaradıcılığından söz açılacaq, tanınmış xanəndə və tarzənlərin ifasında musiqilər səslənəcək.

# Filarmoniyada ilin ilk konserti

Yanvarın 14-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında ilin ilk konserti keçiriləcək. Filarmoniyada Xalq artisti, bəstəkar Azər Dadaşovun 75 illik yubileyinə həsr olunmuş proqram təqdim ediləcək.

Konsertdə Mustafa Mehmandarovun dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiət edəcəyi konsertdə solistlər – Nərgiz Kəngərli (piano), Nuranə Zeynalova (piano), İsmayıl Yunusov (bariton) çıxış edəcəklər. Gül-



bacı İmanovanın dirijorluğu ilə Azərbaycan Dövlət Xor Kapellasının çıxışı da nəzərdə tutulur.

# Respublika Uşaq Kitabxanasına ekskursiya təşkil edilib

Yanvarın 11-də "Trio" tədris, incəsənət və idman mərkəzinin balaca fidanları üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasına ekskursiya təşkil edilib.

Əvvəlcə uşaqlar kitabxana ilə tanış olub, sonra kitabla düzgün rəftar etməyi öyrəniblər.

Ekskursiya zamanı uşaqlar nağıl otağında Azərbaycan nağıllarını dinləyib, maraqlı tapmacalara cavab verib, kiçik oxu zalında danışan, səsli və rəngarəng kitablarla tanış olublar. Daha sonra cizgi filmlərinə baxıblar.



Balacalar kitabxanadan şən əhval-ruhiyə ilə ayrılıblar.

# Tələbələr "Yaradıcı qığılcım"la tanış olublar

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) tələbələr "Creative Spark" ("Yaradıcı qığılcım") layihəsi ilə tanış olublar.



Mərkəzdən bildirilib ki, layihənin ölkə üzrə meneceri Elnur Əliyev tələbələrə proqramın komponentləri, "Big idea" videotəqdimat müsabiqəsi, tərəfdaş universitetlərin tələbələri üçün yaratdığı imkanlar və layihənin uğur hekayələri haqqında ətraflı məlumat verib.

Görüşdə keçiriləcək silsilə tədbirlərə dair müzakirələr aparılıb.

Layihə İİTKM və Nyukasl Universiteti (Newcastle University) ilə birgə Britaniya Şurasının (British Council) dəstəyilə icra olunur. 2018-ci ildə Britaniya Şurası tərəfindən yaradılan bu layihə minlərlə tələbə, məzun və sahibkara innovativ biznes ideyaları ilə yenilik gətirir, həmçinin gənclərin yaradıcı iqtisadiyyatda rolunu artırır.



# Natəvanın 190 illiyinə həsr olunan beynəlxalq elmi konfrans

Klassik ədəbiyyatımızın görkəmli nümayəndəsi, şairə Xurşudbanu Natəvanın (1832-1897) 190 illik yubileyi münasibətilə iyunun 14-də AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində beynəlxalq elmi konfrans keçiriləcək.

Ədəbiyyat Muzeyindən bildirilib ki, "Xan qızı Natəvan və Azərbaycan qadınının ədəbi-mədəni mübarizələri" adlı konfransa məqalələr aprelin 15-dək qəbul olunur.

Elmi konfrans "Xurşudbanu Natəvanın mühiti, həyatı, ədəbi-mədəni irsi", "Azərbaycanda, Yaxın və Orta Şərqdə ədəbi və musiqili məclislər ənənəsi", "Qarabağın ədəbi-mədəni irsi bölgədə və Azərbaycan ətrafında cərəyan edən tarixi, ictimai-siyasi proseslərin kulturoloji salnaməsi kimi", "Tarixi məzmunlu "Qarabağnamə"lər və ədəbi abidələrdəki Qarabağ həqiqətləri", "Yaxın və Orta Şərq ədəbi-mədəni mühiti və tarixi-siyasi proseslərdə yaradıcı və ictimai fəal qadınların yeri", "Milli dövlətçilik ənənələri kontekstində Azərbaycan xanlıqları və Qarabağ xanlığı" mövzularını əhatə edir.

Məqalənin tərtib olunması qaydaları və şərtləri ilə Ədəbiyyat Muzeyinin internet səhifəsində tanış olmaq mümkündür.

## "Qarabağın döyünən ürəyi – Şuşa"

İşğaldan qurtuluşunun ikinci ilini yaşayan mədəniyyət paytaxtımız Şuşanın adı həm də dövlət başçısının sərəncamı ilə 2022-ci illə qoşa çəkiləcək. Bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində "Şuşa İli" münasibətilə tədbirlərə başlanılıb.



Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsinin təşkilatçılığı ilə "Azad Şuşa" adlı tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, Vətən müharibəsində Şuşanın düşməndən azad edilməsi Azərbaycan tarixinin ən şanlı səhifələrindəndir. Tədbirin sonunda iştirakçılar "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" adlı sərgiyə baxıblar.

Şəki RMİ-nin tabeliyindəki Qax MKS-nin Güllük kənd kitabxana filialında "Şuşa bizimdir, Qarabağ Azərbaycandır!" adlı tədbir təşkil olunub. Tədbirdə "2022-ci il "Şuşa İli"dir" adlı sərgi nümayiş etdirilib.




Gəncə RMİ Samux rayon Heydər Əliyev Mərkəzində "Şuşa Azərbaycanın gözüdür" adlı tədbir keçirilib. Çıxış edənlər "Şuşa İli"nin əhəmiyyətini vurğulayıblar. Daha sonra Şuşa şəhərində aparılan quruculuq işlərindən bəhs edən sənədli film izlənilib.

Sabirabad RMİ Hacıqabul rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Sabirabad nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Qarabağın döyünən ürəyi – Şuşa" adlı rəsm və əl işləri (maket) müsabiqəsi elan olunub. Müsabiqədə Hacıqabul rayonundan olan 14-29 yaş arası gənclər iştirak edə bilərlər. Yanvarın 10-da başlayan müsabiqə bu ayın 30-dək davam edəcək. Hazırlanan əl işləri Hacıqabul rayon Heydər Əliyev Mərkəzinə təqdim olunmalıdır.

## Azad olunmuş ərazilərin 50 faizində "4G" şəbəkəsi qurulub

Azərbaycanda ev və mənzillərin 100 faizi 2024-cü ilin sonunadək müasir texnologiyalarla yüksək sürətli internetlə təmin ediləcək.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib ki, 150 min ev təsərrüfatında müasir yüksək sürətli internetə imkan verə bilən fiber-optik xətlər çəkilib. Eyni zamanda, 1400 kilometr uzunluğunda fiber-optik xətlərin çəkilişi davam etdirilir.

Nazirlikdən verilən məlumata görə, 2021-ci ildə işğaldan azad olunmuş ərazilərin təxminən 50 faizində "4G" mobil texnologiyaları şəbəkəsi qurulub, 35 faiz teleradio yayımı bərpa edilib, 4 istiqamətdə poçt xidmətlərinin göstərilməsinə başlanılıb. Hazırda 1500 kilometrdən çox avtomobil yollarının, 3 hava limanının, regionu digər regionlarla bağlayan strateji dəmir yollarının inşası üzrə işlər davam edir.

## Qax kuklaçıları maraqlı tamaşalarla balacaları sevindirəcək

Qax Dövlət Kukla Teatrı yeni ilin ilk günlərindən balaca tamaşaçılarını sevindirməyə başlayıb. Yeni il bayramı münasibətilə uşaqlar üçün şənliklər təşkil olunub.



Şaxta baba və Qar qız, cizgi film qəhrəmanı Mikki Maus uşaqları təbrik edib, onlarla birgə rəqs edib, əyləniblər. Sonra uşaqlar rus yazıçısı Pavel Morozovun "Yırtıcı dovşan" əsəri əsasında səhnələşdirilmiş eyniadlı tamaşaya baxıblar. Tamaşanın rejissoru Araz Mehrablı, rəssamı Mayis Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyevdir. Rolları Azər Kərimov, Aynurə Abbasova, Elnarə Babayeva, Nuru Mustafayev, Afət Yaqubova, Vasif Fikrətli və başqaları ifa edirlər.

Teatrın baş rejissoru, Əməkdar artist Yusif Abdurahmanov bildirib ki, yanvar ayı ərzində teatrda Osman Abdullayevin "Qoğal", "Diş əhvalatı" və Astrid Lindqrenin "Karlson" tamaşaları oynanılacaq. Həmçinin Rəhman Əlizadənin "Tülkünün uçuşu" tamaşasının məşqlərinə başlanılacaq. Tamaşanın rejissoru A.Mehrablı, rəssamı M.Abdullayev, musiqi tərtibatçısı N.Fətəliyevdir.

## Estrada orkestrinin 10 yaşı konsertlə qeyd olunub

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Filarmoniyası Estrada orkestrinin yaradılmasının 10 illiyinə həsr olunmuş konsert proqramı təqdim edilib.



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşən konsert Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından musiqi ilə başlayıb. Eldar Mansurov, Emin Sabitoğlu, Mehriban Əhmədova, Səid Rüstəmov, Fikrət Əmirov, Müslüm Maqomayev, Nizami Məmmədov, Elza İbrahimova və bir sıra xarici bəstəkarların əsərləri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Musiqi əsərlərini orkestrin müşayiəti ilə muxtar respublikanın Əməkdar artistləri Ruhiyyə Hüseynova, Arzu Fərzəliyev və digər solistlər ifa ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2012-ci il yanvarın 10-da imzaladığı sərəncam ilə yaradılan bu musiqi kollektivi qısa vaxtda estrada həvəskarlarının rəğbətini qazanıb. Estrada orkestrinin bədii rəhbəri və dirijoru Elvin Əliyarovdur.

## Sərgi, yubiley, toplantı, açıq dərs...



Ağdaş RMİ Göyçay rayon MKS-də nasir, şair, tərcüməçi, Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Vidadi Babanlının 95 illiyi ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Mərkəzi Kitabxananın, şəhər və kənd kitabxanalarının işçiləri iştirak ediblər. MKS-nin direktoru Nərmin Xəlilova çıxış edərək yazıçının həyat və yaradıcılığı haqqında məlumat verib. Ədibin yaradıcılığını əks etdirən sərgiyə baxış olub.

Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "20 Yanvar qan yaddaşımızdır" adlı sərgi təşkil olunub. Yanvarın 21-dək davam edəcək sərgidə qanlı faciəni əks etdirən foto, rəsm və digər məlumatlar nümayiş olunub. Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyinin kollektivi Vətən müharibəsi şəhidi Elgün Sadıqovun doğum günü münasibətilə ailəsini ziyarət edib. Görüş zamanı muzeyin əməkdaşları şəhidin şəkilləri və şəxsi əşyaları ilə tanış olublar.

İsmayıllı RMİ Ağsu rayon Heydər Əliyev Mərkəzində "İlboyu bilik" layihəsinə başlanılıb. Könüllü gənclərin iştirakı ilə gerçəkləşən ilk təlim "Kompüter və internetin əsasları" mövzusuna həsr olunub. Layihə çərçivəsində mərkəzin əməkdaşları, könüllü fəal gənclər, müəllim və məktəblilərin iştirakı ilə mərkəzdə və rayon ümumtəhsil müəssisələrində mühazirə və təlimlər keçiriləcək.



Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Zəfər palitrası" adlı sərgidə iştirak etmiş rəssamlarla görüş keçirib. Rəssamlara təşəkkürünü bildirən idarə rəisi onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıb və sertifikatlar təqdim edib.

Ağstafa RMİ Ağstafa rayon MKS-nin Oxuculara xidmət şöbəsi "Yaddaşlarda yaşayan yazıçı Əlfi Qasımov" başlıqlı tədbir təşkil edib. Yazıçı, publisist Əlfi Qasımovun (1927-1985) 95 illik yubileyinə həsr olunan tədbirdə ədibin həyat və yaradıcılığı haqqında söz açılıb. Sonra müəllifin "Adilənin taleyi" romanının müzakirəsi aparılıb.



Qazax rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları tərəfindən İsmayıl Şıxlı adına Kosalar kənd tam orta məktəbin VII sinif şagirdləri üçün "Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin uğurlu davamı" mövzusunda "açıq dərs" keçirilib. Dərsdə ulu öndər Heydər Əliyevin şərəfli ömür yolundan və zəngin dövlətçilik təcrübəsi sayəsində mühüm tarixi nailiyyətlərindən bəhs edilib.

Şəmkir RMİ Şəmkir Heydər Əliyev Mərkəzində 2021-ci ilin yekunu və 2022-ci ildə görüləcək işlərə dair hesabat iclası keçirilib. İclasda idarə rəisi Azər Rəcəbov mövcud problemlərin aradan qaldırılması, müəssisələrdə şəffaflığın, əmək fəaliyyətində nizam-intizamın təmin edilməsi və 2022-ci ildə görüləcək işlərlə bağlı göstəriş və tapşırıqlarını verib.

**Hazırladı: N.Məmmədli**

## "Zəfər qəhrəmanları" sərgisi davan edir

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunda Qarabağ müharibəsinin şəhidlərinə və qazilərinə həsr olunan "Zəfər qəhrəmanları" sərgisi davam edir. İki aya yaxın müddətdə sərgiyə gələnlərin sayı min nəfəri ötüb.

"Zəfər qəhrəmanları" sərgisi qoruğun və "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin birgə təşkilatçılığı ilə ötən il noyabrın 13-də açılıb və yanvarın 31-dək fəaliyyət göstərəcək. Sərgidə Birinci və İkinci Qarabağ müharibəsinin şəhidləri və iştirakçılarına məxsus geyimlər, mülki və hərbi əşyalar, fotoşəkillər, sənədlər, medallar və sair eksponatlar nümayiş olunur. Sərginin əsas hissəsi Ağsu rayonunun 44 günlük Vətən müharibəsində şəhid olmuş igidləri haqqındadır.

"Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktor müavini Şölə Bayramova sərginin yerli sakinlər, o cümlədən məktəblərin şagird və müəllimləri ilə yanaşı, Bakı, Kürdəmir, Naxçıvan və Sumqayıtdan gələn qonaqlar, şəhid ailələri, dövlət qurumlarının əməkdaşları tərəfindən ziyarət olunduğunu bildirib.




Sərgi çərçivəsində orta məktəblər üçün hazırlanmış xüsusi proqramlar icra olunub. Heykəltəraş Vüqar Quliyevin "Qarabağın tarixi abidələrini birlikdə quraq", sənətşünas Səma Alməmmədli və bələdçi Xoşqədəm Əkbərlinin "Zəfər rəsmləri" mövzulu ustad dərsləri, qoruğun əməkdaşı Şələ Osmanlının təqdimatı ilə "Zəfər qəhrəmanları" mövzusunda esse yarışması, "Xançoban" musiqi qrupunun rəhbəri, xanəndə Ruslan Adıgözəlovun təqdimatı ilə muğam üzrə, fotoqraf Anar Həbibovun məktəblilərə foto və videoçəkilişlər üzrə ustad dərsləri kimi tədbirlər bu qəbildəndir.

## Mərkəzi Nəbatat Bağı və Dendrologiya İnstitutu AMEA-nın balansından çıxarılıb

### Publik hüquqi şəxs kimi fəaliyyət göstərəcəklər



Mərkəzi Nəbatat Bağı və Dendrologiya İnstitutu Azərbaycan Milli Elmlər Akademiyasının balansından çıxarılıb, onların əsasında "Mərkəzi Nəbatat Bağı" və "Dendrologiya Bağı" publik hüquqi şəxslər yaradılıb.

Bununla bağlı Nazirlər Kabineti müvafiq qərar qəbul edib. Qərara əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağının mövcud ərazisi və Dendrologiya İnstitutunun Bakı şəhərinin Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən mövcud ərazisi müvafiq olaraq "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxsin və "Dendrologiya Bağı" publik hüquqi şəxsin ərazisi qismində müəyyən edilib.

Mərkəzi Nəbatat Bağı və Dendrologiya Bağı Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində publik hüquqi şəxslər olacaq.

Bakı Şəhər İcra Hakimiyyəti İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla AMEA-nın Mərkəzi Nəbatat Bağının və Dendrologiya İnstitutunun balansında olan dövlət əmlakının müvafiq olaraq "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxsin və "Dendrologiya Bağı" publik hüquqi şəxsin balansına verilməsi ilə bağlı təkliflərini Nazirlər Kabinetinə təqdim etməlidir.

## Şirvan Milli Parkına ekskursiya

11 yanvar Dünya Qoruqlar və Milli Parklar Günü kimi qeyd olunur. Əlamətdar gündə Salyan rayonu gənclərinin Şirvan Milli Parkına ekskursiyası təşkil edilib.




Ekskursiya Gənclərin İnkişaf və Karyera Mərkəzi Salyan nümayəndəliyinin təşkilatçılığı ilə həyata keçirilib. Gənclərə Şirvan Milli Parkının ərazisi, relyefi, torpaq örtüyü, flora və faunası haqda məlumat verilib. Bildirilib ki, ərazidə 82 növ çiçəkli bitki qeydə alınıb. Ərazidə yaşayan ceyran, safsar və çöl pişiyi respublikanın "Qırmızı kitab"ına daxil edilib. Parkda 17 növ sürünən heyvanlar var. Bunlardan 3 növü tısbağa, 6 növü kərtənkələ və 8 növü ilandır.

Gənclər binokllar vasitəsilə ərazidəki ceyranları, buradakı göldə yaşayan yaşılbaş ördək, boz ördək, enliburun ördək, flaminqo və digər quşları izləyiblər. Sonda gənclər ekskursiya barədə təəssüratlarını bölüşüblər.

## Narkomaniya əleyhinə maarifləndirici tədbir

Xaçmaz rayonu Şəmsəddin Sədiyev adına Qımılqışlaq kənd tam orta məktəbində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib.

Rayon Polis şöbəsinin rəisi, polkovnik-leytenant Həmid Həsənov, Təhsil şöbəsinin müdiri İnqilab Musayev, həkim- narkoloq Ağakərim Muradxanov və başqaları çıxış edərək "ağ ölüm"ün törətdiyi fəsadlar barədə danışıblar.

Xaçmaz RPŞ-nin İctimai təhlükəsizlik bölməsinin rəisi Kamran Bayramov narkotiklərin qanunsuz dövriyyəsinin cəmiyyətə və insanların sağlamlığına vurduğu zərərlərdən ətraflı bəhs edib, bu istiqamətdə hüquq-mühafizə orqanlarının apardığı mübarizə barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Çıxışlarda uşaqların zərərli vərdişlərdən mühafizəsi üçün hüquq-mühafizə orqanlarının, təhsil müəssisələrinin və ictimaiyyətin birgə fəaliyyətinin zəruriliyi bildirilib. Vurğulanıb ki, pedaqoji kollektivlər məktəblilərin davranışlarını müntəzəm izləməlidir.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən film nümayiş etdirilib.

Bu mövzuda maarifləndirici tədbirlərin rayonun bütün məktəblərində təşkil olunması nəzərdə tutulub.

## "İslam sivilizasiyası Qafqazda"

### Beynəlxalq simpoziumun materialları nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutu (AİI), İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzi (IRCICA) və AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun birgə təşkilatçılığı ilə ötən il Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" II beynəlxalq simpoziumun (11-12 iyul 2021-ci il) materialları çapdan çıxıb. Bu barədə AİI-dən məlumat verilib.

İki cilddən ibarət olan kitabda İslam sivilizasiyasının təşəkkül və inkişafına dair məruzələr toplanıb. Simpoziumda "Qafqazda İslamın yayılması", "İslam mədəniyyətinin Qafqazda dini və ictimai-mədəni həyata təsiri", "Qafqazda İslam elmlərinin inkişafı", "Qafqazda multikulturalizm", "Azərbaycanda tolerantlıq və multikultural ənənələrin möhkəmləndirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin rolu", "Qafqazda din təhsilində məscid, mədrəsə və xanəgahların rolu" və digər mövzularda məruzələr dinlənilmişdi.

## Ölkəmizdəki yəhudi tarixi abidələri haqqında tədqiqat

Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) İctimai fənlər kafedrasının professoru Məhərrəm Zülfüqarlının Azərbaycan regionlarında olan yəhudi tarixi abidələrinə həsr etdiyi elmi məqalə "Web of Science" və "Scopus" bazalarına daxil olan "Voprosı istorii" (Rusiya) jurnalında nəşr olunub.

ATMU-dan bildirilib ki, məqalədə Quba şəhərinin Qırmızı qəsəbəsində, Oğuzda, Şamaxıda, İsmayıllının Mücü və Mücü-Həftəran kəndlərində kompakt halda yaşamış və yaşamaqda davam edən yəhudi xalqının tarixi abidələri haqqında geniş məlumat verilib.

# “Öyrədərək öyrənirəm”

## Ustad dərslərinin birinci mərhələsi gerçəkləşib

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Öyrədərək öyrənirəm” adlı ustad dərsləri layihəsi həyata keçirilir.

Yanvarın 10-da Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü, Azərbaycan Dövlət Pantomim Teatrının baş rejissoru Bəxtiyar Xanızadənin iştirakı ilə layihənin ilk tədbiri gerçəkləşib. Üç mərhələdə və mövzuda nəzərdə tutulan birinci ustad dərsi “Həqiqi hisslərlə yaşamaq azdır” mövzusuna həsr olunub. Aktyorlar üçün nəzərdə tutulan təlimdə Bəxtiyar Xanızadə özünün tələbəlik illərini xatırlayıb, gənclərə sənət yolundan bəhs edib. Xalq artisti bildirib ki, vaxtilə onun ən böyük arzusu Sankt-Peterburqda aktyorluq üzrə təhsil almaq olub.

Diskussiya şəklində baş tutan görüşdə rejissor təlimə qatılan aktyorlara vaxtilə gənc ikən onun özünə ünvanlanan sualla müraciət edib. O, “Bilmirəm siz məndən nə istəyirsiniz, amma mən bu gündən heç nə gözləmirəm” deyərək bu fikrə gənclərin reaksiyasını öyrənib. Rejissor teatr səhnəsinin görkəmli simalarından sitatlar gətirib, “Həqiqi hisslərlə yaşamaq azdır, onu təqdim etmək bacarığı olmalıdır” fikrini xatırladıb.

Ustad dərsində praktik və nəzəri biliklərin təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb, teatr səhnəsindəki yeniliklər, fərdi yaradıcılıq imkanları müzakirə olunub.



Bəxtiyar Xanızadə həmçinin aktyorlara ən çox istədiklərini təsəvvürünə gətirmələrini istəyib. Gənclər xəyallarında canlandırdıqları arzularını vərəqə köçürüblər. Təlim digər maraqlı texnikalarla davam edib.

Bildirək ki, “Həqiqi hisslərlə yaşamaq azdır” mövzusu üzrə aktyorlarla müzakirələr yanvarın 11-də də davam edib.

Xatırladaq ki, layihə üzrə “Şekspirin Hamleti. Hamlet kimdir?” adlı növbəti təlim yanvarın 13-də rejissorların iştirakı ilə keçiriləcək. Yanvarın 14-də təşkil olunacaq “Teatr və mən – mən və teatr” adlı təlimdə isə yalnız teatrşünasların iştirakı nəzərdə tutulur.

**Lalə Azəri**

# Verdinin “Traviata”sı yeni Alfredlə səhnəyə çıxır

## Ramil Qasımov: “İnanıram ki, debüt ifamla dinləyici rəğbətini qazanacağam...”

Yanvarın 15-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında italyan bəstəkar Cüzeppe Verdinin “Traviata” operasının tamaşası keçiriləcək. Fransız yazıçısı Aleksandr Dümanın (oğul) “Kameliyalı qadın” əsəri əsasında yazılan məşhur opera Parisin kübar təbəqəsindən Violetta adlı gənc qadının enişli-yoxuşlu həyatını əks etdirir. Alfred və Violettanın nakam sevgisindən bəhs edən tamaşa Akademik Opera və Balet Teatrının solistləri, orkestri və xoru tərəfindən sənətsevərlərə təqdim olunacaq.

Baş rollarda Əməkdar artistlər Ramil Qasımov (Alfred) və İnarə Babayeva (Violetta) çıxış edəcəklər. Digər rolları Xalq artistləri Əli Əsgərov (Markiz), Əkrəm Poladov (Doktor D’ Obiniy), Əməkdar artistlər Cahangir Qurbanov (Jermon), Tural Ağasıyev (Qaston) və solistlər Nina Makarova (Flora), Mahir Tağızadə (Baron Bufol), Səbinə Bağırova (Anina) ifa edəcəklər. Tamaşanın dirijoru Xalq artisti Fəxrəddin Kərimov, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır.

Dünya opera teatrlarında ən çox səhnələşdirilən əsərlərdən olan “Traviata”da debüt edəcək Ramil Qasımov ürək sözlərini belə ifadə edib: “Hər bir opera tamaşasında çıxış etmək mənim yaradıcılığımda yeni nailiyyətdir. Bu gün ölkəmizdə klassik vokal sənətinin təbliği və inkişafı üçün geniş zəmin yaradılıb və qürur hissi ilə deyə bilərəm ki, mən də bu yolda əlimdən gələni edirəm. “Traviata” dahi Cüzeppe Verdinin əsərləri xüsusilə seçilən və İtaliya musiqisində əbədi olaraq iz qoymuş klassik operalardandır. Xeyli müddətdir ki, xüsusi müəllim ilə italyan dilini öyrənirəm. Klassik vokal sənətinə hər zaman ciddi yanaşmaq və daha ciddi məşğul olmaq tələb olunur. İtalyan dilini öyrənməyim ifamın mükəmməlləşməsi, obrazların daxili aləmini daha yaxından anlamaq, qəhrəmanların hiss və həyəcanını istənilən səviyyədə ifadə edə bilmək baxımından çox vacibdir. Alfred çox fərqli və özünəməxsus koloritli obrazdır. Mən də öz növbəmdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti kimi rolumun öhdəsindən gəlməyə çalışıram. İnanıram ki, debüt ifamla dinləyici rəğbətini qazanacağam. Tamaşanın dirijoru Fəxrəddin Kərimovun çox məsuliyyətli və qızğın məşqləri hər birimizə böyük şövq verir və bunu tamaşada mənimlə tərəf-müqabil olan bütün sənət dostlarım təsdiq edə bilərlər. Fürsətdən istifadə edərək teatrımızın bütün yaradıcı və texniki heyətinə uğurlar arzulayıram”.

# Şuşa Dövlət Musiqili Dram Teatrında yeni səhnə əsəri

2022-ci ilin “Şuşa İli” elan olunması Şuşa Dövlət Musiqili Dram Teatrının kollektivi tərəfindən böyük rəğbətlə qarşılanıb.

Pandemiyanın doğurduğu uzun fasilədən sonra ötən ilin oktyabrında yeni mövsümə başlayan teatr repertuarındakı səhnə əsərlərini bərpa edib. Xanımana Əlibəylinin “Dovşanın ad günü” (premyera), Altay Məmmədovun “Dəli Domrul”, Mirzə Fətəli Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran” və “Müsyö Jordan və dərviş Məstəli şah”, Cəlil Məmmədquluzadənin “Anamın kitabı”, Cəfər Cabbarlının “Solğun çiçəklər”, Abdulla Şaiqin “Danışan gəlincik” və digər tamaşalarla yanaşı, İsgəndər Coşqunun “Çal-oyna” nağıl-tamaşası və Vətən müharibəsində Qələbənin birinci ildönümü ilə əlaqədar “Qarabağ – Azərbaycandır!” adlı konsert proqramı da repertuara daxil edilib.

Teatrın kollektivi “Şuşa İli”ndə yeni səhnə əsərləri ilə də tamaşaçıların görüşünə gələcək. Hazırda teatrda Hüseyn Cavidin “Ana” tamaşasının son məşqləri gedir. Premyera yanvarın 29-da olacaq. Tamaşa böyük ədibin 140 illiyinə həsr olunub.

# “Bir nəfəs qədər”

## 20 Yanvarın ildönümü ərəfəsində göstəriləcək

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında qürur mənbəyimiz olan şəhidlərə, qazilərə və Zəfərimizin simasına çevrilən analara həsr olunan “Bir nəfəs qədər” (pyesin müəllifi – Samir Qulamov) tamaşası növbəti dəfə Qara Yanvarın ildönümü ərəfəsində, yanvarın 19-da nümayiş ediləcək.



SSRİ Xalq artisti Fikrət Əmirovun musiqisi əsasında hazırlanan bu səhnə əsərinin ideya müəllifi Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, quruluşçu rejissoru Samir Qulamov, quruluşçu dirijoru və musiqi tərtibatçısı Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysteri Əməkdar artist Leyla Ağayeva, konsertmeysteri Kamil Həsənov, rejissor assistentləri Sevinc Məmmədova və Əmrah Dadaşovdur. Tamaşada gənc pianoçu Kamil Həsənovun fortepiano musiqisindən də istifadə olunub.

Rolları Əməkdar artist Nahidə Orucova, aktyorlar Gülnarə Abdullayeva, Gülcahan Salamova, Əmrah Dadaşov, İbrahim Əlizadə, Nəzrin İsmayılzadə, Mehriban Zaliyeva, Səmədzadə Xasıyev, Hidayət Əliyev, Əli Kərimov və Murad Əliyev ifa edirlər.

# “Mistik ruhun ömrü”

## Rəngkarlıq Muzeyində sərgi apreldək açıq olacaq

Azərbaycan Rəngkarlığı Muzeyində Xalq rəssamı Mirnadir Zeynalovun (1942-2021) “Mistik ruhun ömrü” adlı retrospektiv sərgisi davam edir.

YARAT Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə açılan sərgidə mərhum rəssamın Azərbaycan Milli İncəsənət Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından, eləcə də şəxsi kolleksiyalardan ümumilikdə 60-dan artıq əsəri nümayiş olunur.

Layihə ötən il martın 10-da əbədiyyətə qovuşan rəssamın anadan olmasının 80 illiyinə həsr edilib. Sərginin kuratoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikovadır.

Sərgi məkanı rəssamın yaradıcılığının müxtəlif tərəflərini iri planda əks etdirərək bir neçə tematik zala bölünür. Abstrakt rəngkarlıq zalı rəssamın rəng ustalığına diqqət çəkir. Bu ekspozisiyanı kollajlar zalı məntiqi şəkildə davam etdirir: rəssam klassik kətan əsərlərini müxtəlif materiallarla zənginləşdirməyi və bütün bunları nəhəng, monumental formatda birləşdirməyi sevirdi.



Fiqurativ rəngkarlıq zalı öz mövzusuna görə bir qədər məhrəm və ailəvi xarakter daşıyır: burada Mirnadir Zeynalova yaxın olan insanların müxtəlif illərdə çəkilmiş portretləri ilə yanaşı, rəssamın öz avtoportretləri də nümayiş etdirilir.

Mənzərələr zalını Mirnadir Zeynalovun kiçik vətəni, onun təkcə təsviri sənət deyil, həm də poeziya yaradıcılığını qidalandıran Abşeronun himni adlandırmaq olar. “Ömür yolu” adlanan zal isə çeşidli rənglərə boyanaraq mistik ruhu əks etdirir.

Qrafika zalında tamaşaçıların diqqətinə unikal əsərlər təqdim olunur. Mirnadir Zeynalov adətən yaradıcılığının bu hissəsinə çox da ciddi yanaşmayıb və bu monoxrom, minimalist əsərlər rəssamın yaşadığı dövrdə çoxsaylı sərgilərində, deməli olar ki, nümayiş etdirilməyib. Lakin bu əsərlərdə bir-iki cizgi ilə xüsusi əhval-ruhiyyə yarada bilib.

Sərgi zallarında, həmçinin Mirnadir Zeynalovun əsərlərinin ideyalarını tamamlayan, daha yaxşı qavranılmasına kömək edən şeirlərindən parçalar da yer alır.

Sərgi zallarının birində rəssamın ölümündən bir neçə ay əvvəl onun haqqında ərsəyə gələn film təqdim olunur. “Sənətkarın həyatında bir gün” formatında qurulan, film-monoloq janrında çəkilmiş sənədli ekran əsəri Şirin Məlikovanın təşəbbüsü və “Bakı Abadlıq Xidməti” ASC-nin maliyyə dəstəyi ilə rejissor Mübariz Nağıyev tərəfindən lentə alınıb.

Rəssam haqqında materialları onun öz şeirlərini oxuduğu səs yazıları (sərgi zalındakı vintaj telefonun dəstəyini qaldıraraq dinləmək mümkündür) və onun şəxsi arxivindən seçilmiş fotoşəkillər tamamlayır.

Mərhum rəssamın “Mistik ruhun ömrü” retrospektiv sərgisi aprelin 3-dək ziyarətçilər üçün açıqdır.

# Əməkdar artist Novruz Qartal dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə itki üz verib. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyoru, Əməkdar artist Novruz Əliyev (Novruz Qartal) yanvarın 8-də, 75 yaşında, uzun sürən xəstəlikdən sonra vəfat edib.



Novruz Yaqub oğlu Əliyev 1947-ci il martın 1-də anadan olub.1966-cı ildə Azərbaycan Dövlət İncəsənət İnsitutunun Musiqili komediya aktyorluğu fakültəsinə daxil olub. 1967-ci ildə Musiqili Komediya Teatrında (indiki Akademik Musiqili Teatr) fəaliyyətə başlayıb.

“Toy kimindir” səhnə əsərində Qoşun, “Durna”da Dursun, “Hicran”da Balaəmi, “Lənət şeytana”da İsrafil, “Özümüz bilərik”də İbişov, “Milyonçunun dilənçi oğlu”nda Xidmətçi, “Sevindik qız axtarır”da Tələbə, “Nənənin şahlıq quşu”nda Qədim Qədimoviç və digər rolları ilə tamaşaçıların rəğbətini qazanıb.

Aktyor bir müddət Xalq artisti Hacıbaba Bağırovun rəhbərlik etdiyi “Tənqid-Təbliğ” teatrında çalışıb. 1996-cı ildən yaradıcılıq fəaliyyətini yenidən indiki Akademik Musiqili Teatrda davam etdirib, teatrın səhnəsində maraqlı obrazlar silsiləsi yaradıb.

Sənətkar 2013-cü ildə “Əməkdar artist” fəxri adına layiq görülüb.

Novruz Əliyev Akademik Musiqili Teatrda yeni quruluşda hazırlanan “Beşmanatlıq gəlin” tamaşasında rol alsa da, amansız xəstəlik premyerada oynamağı ona nəsib etməyib.

Aktyorun xatirəsi onu tanıyan sənətsevərlərin, həmkarlarının qəlbində yaşayacaq.

Əməkdar artist Novruz Əliyev yanvarın 9-da Gəncə şəhərində “İmamzadə” qəbiristanlığında dəfn edilib. Vida mərasimində aktyorun sənət yoldaşları, şəhər İcra Hakimiyyətinin, Gəncə Regional Mədəniyyət İdarəsinin, Gəncə Dövlət Dram Teatrının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak edib.

Allah rəhmət eləsin.

# Bakı Uşaq və Gənclər Teatrının yanvar repertuarı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Bakı Uşaq və Gənclər Teatrı 2022-ci ilin yanvar ayı üçün repertuarında beş səhnə əsəri var.



Kollektiv yanvarın 8-də “Danışan gəlincik” (Abdulla Şaiq) tamaşasını balaca teatrsevərlərə təqdim edib. 15 yanvarda “Çay dəsgahı” (Cəlil Məmmədquluzadə), 19 yanvarda “Cənnətə bilet” (İlhamə Əhmədova) tamaşaları nümayiş olunacaq.

Yanvarın 22-də “Humayın yuxusu” (Elçin), yanvarın 29-da isə “Sehrli tütək” (İntiqam Soltan) tamaşaları göstəriləcək.

Qeyd edək ki, tamaşalar Qaraçuxur qəsəbəsi, K.İsmayılov küçəsi 18 ünvanında yerləşən Qurban Abbasov adına Mədəniyyət Sarayının səhnəsində oynanılır.

# “Qarabağnamə” tamaşası nümayiş olunacaq

Yanvarın 19-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında “Qarabağnamə” tamaşasının növbəti nümayişi olacaq. Səhnə əsəri 20 Yanvar faciəsinin 32-ci ildönümü münasibətilə təqdim ediləcək.

Xalq yazıçısı İlyas Əfəndiyevin “Hökmdar və qızı” əsəri əsasında hazırlanan tamaşanın rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, quruluşçu rəssamı İsmayıl Məmmədov, musiqi tərtibatçısı Həmid Kazımzadə, geyim rəssamı Aygün Mahmudova, işıq rəssamı Rafael Həsənovdur.

Səhnə əsərində XVIII əsrin sonları – XIX əsrin əvvəlində Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın həyatından bəhs edir. O dövrdə xanlıqlara bölünmüş Azərbaycana yiyələnmək istəyən Rusiya və İranla siyasi münasibətləri tənzimləməyə çalışan İbrahim xan erməni fitnəkarlığının qurbanı olur.

# Yuğ teatrından “Təklif” də var, “Vəsvəsə” də...

Azərbaycan Dövlət Yuğ Teatrı yanvar ayı üzrə repertuarını elan edib.



Teatrda yanvarın 15-də “Təklif” (A.Çexovun əsəri əsasında), 16-da “Vəsvəsə” (Henrik İbsen), 22-də isə “Mənəm, mən...” (İlqar Fəhmi) tamaşaları nümayiş olunacaq.

Bundan başqa, yanvarın 23-də “Quş dili” (Təranə Vahid) tamaşası, ayın 29-da isə “Təklif” növbəti dəfə göstəriləcək.

Qeyd edək ki, tamaşalar Azərbaycan Dövlət Kukla Teatrının binasının 2-ci mərtəbəsində yerləşən səhnədə nümayiş olunur.

# “Bir səbət tənhalıq”

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının maraqlı səhnə əsərlərindən olan “Bir səbət tənhalıq” yanvar ayının repertuarında yer alıb.

Məcid Vahidzadənin eyniadlı pyesi əsasında hazırlanmış monotamaşa yanvarın 23-də sənət ocağının kiçik səhnəsində nümayiş etdiriləcək.

Səhnə əsərinin quruluşçu rejissoru Əməkdar artist Nofəl Vəliyev, tərtibatçısı Zəminə Orucova, musiqi tərtibatçısı İradə Muradova.

Səhnə əsəri mənəvi tənhalıqdan, iki tənha qəlbin nəhayətdə bir-birini tapmasından bəhs edir.

# "Hiss edirəm ki, şəhid olacağam..."

Qəlbində Vətən eşqindən sönməz ocaq qalayan, yurdumuzu bütöv görməyi arzulayan və bu amal uğrunda şəhidlik zirvəsinə ucalan igidlərimizdən biri də Sənan Əhmədovdur.



Sənan Qalasan oğlu Əhmədov 1988-ci il fevralın 15-də Şamaxı rayonunun Bağırlı kəndində anadan olub. 9 illik orta təhsili rayonun Ovçulu kənd məktəbində alıb, sonra Bağırlı kənd şəhid F.Şıxalıyev adına tam orta məktəbdə 11-ci sinfi bitirib.

Sənan 2006–2007-ci illərdə hərbi xidmətdə olur. Əsgərliyini başa vurduqdan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində (TTM) kurs keçərək N saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq tank taqımında sürücü-mexanik kimi xidmətə başlayır. 2015-ci ildə müqavilə müddətinin başa çatması ilə əlaqədar ordu sıralarından ehtiyata buraxılır. Lakin Sənanın Vətənə olan sonsuz sevgisi onu yenidən şanlı formanı geyinməsinə sövq edir. O, yenidən tankçı olaraq hərbi xidmətini davam etdirir.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılan Sənan Əhmədov Füzuli rayonunun Yuxarı Seyidəhmədli, Alxanlı, Mahmudlu, Qaraxanbəyli istiqamətlərində gedən döyüşlərdə düşmənin onlarla hərbi texnikasının məhv edilməsində və yararlı vəziyyətdə ələ keçirilib qənimət kimi mövqeyimizə gətirilməsində böyük şücaət göstərir. Oktyabrın 11-də Füzulinin Qaraxanbəyli kəndi ərazisində ağır döyüşdə düşmənin atdığı minaatan mərmisinin partlaması nəticəsində şəhid olur.

Döyüş yoldaşı, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, qazi Şərif Şərifov Sənan haqqında xatirələrində deyir: "Sənan cəsur olmaqla yanaşı, işinin peşəkarı idi. Döyüş texnikalarımızda nasazlıq olanda özü düzəldib qaydasına salırdı. Onun dostluğuna da söz ola bilməzdi. Öz yoldaşlarına görə düşünmədən canını təhlükəyə atardı. Döyüşün ilk günündə düşmən bizim tankı vurmuşdu. 6 nəfərlik heyətimiz və 2 tankla mühasirədə qalmışdıq. Sənan və digər bir döyüş yoldaşımız Anar Hüseynov gəlib bizi mühasirədən çıxararaq ölümdən xilas etdilər. Bəzən döyüşarası qısa söhbət etmək imkanımız olurdu. Deyirdi üreyimdə bir hiss var ki, şəhid olacağam. Son döyüşə girməzdən öncə Sənan öz çantasını mənə verdi. Çantasında övladlarının şəkilləri və kartı var idi. Söylədi ki, gedirəm, ola bilsin qayıtmadım. Bunlar məndən sənə yadigar qalar. Elə həmin gün vurulmuş hərbi texnikaları götürməyə yollandı. Onunla gedən döyüş yoldaşının tək gəldiyini görüb Sənanı xəbər aldım. Onun səssizliyi və dolmuş gözləri mənə hər şeyi aydın etdi...".

Vətən müharibəsi qazisi, mayor Mirzə Mehdiyev bildirir ki, Sənan peşəkar tankçı olmaqla yanaşı, həm də yaxşı dost idi: "Boş vaxt tapanda oturub dərdləşərdik. Müharibə başlayanda bütün hərbçilər çox sevincli idi. Yəni o inam var idi ki, torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq hamımızdan çox Sənan sevinirdi. Elə bil şəhid olacağını hiss edirdi. O, istəyinə çatdı. Allah bütün şəhidlərimizə rəhmət eləsin...".

Sənanın ən böyük arzusu Qarabağın döyünən ürəyi Şuşanın düşmən işğalından azad olunduğu günü görmək idi. Əfsus ki, o, Şuşamızı, düşmən üzərində qazandığımız parlaq Qələbəni görə bilmədi. Sənan Əhmədov oktyabrın 12-də Şamaxı Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunub.

Əhmədovlar ailəsində hərb sahəsini seçən təkcə Sənan olmayıb, qardaşı mayor Kəyan Əhmədov da Vətən müharibəsinin qazisidir. Döyüşlərdə göstərdiyi şücaətə görə ölkə başçısı tərəfindən Füzulinin, Cəbrayıl və Xocavəndin azad olunmasına görə, həmçinin "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

2013-cü ildə ailə həyatı quran Sənan Əhmədovun İbrahim, Həmid və Nuray adlı övladları Vətənə yadigar qalıb.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Kanadanın kitabxana və arxivlərində Qarabağ mövzusu

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Kitabxana-İnformasiya Mərkəzi tərəfindən "Qarabağ mövzusu dünya kitabxanalarında" layihəsi çərçivəsində Kanadanın kitabxana və arxivlərində araşdırma aparılıb.



UNEC-dən verilən məlumata görə, araşdırma nəticəsində Kanada kitabxanalarında Qarabağ mövzusunda ümumilikdə 2804 nəşrin biblioqrafik təsvirinə rast gəlinib. Bunlar 1884 məqalə, 842 kitab və 42 musiqi nəşrləri, 13 video, 13 xəritə (təəssüf ki, onlardan 10-u 1990-2010-cu illər arasında erməni müəlliflər tərəfindən hazırlanan saxta xəritələrdir), 4 arxiv materialı və s. sənədlərdir. Bu nəşrlərin hər biri dünya kataloquna (WorldCat) daxil edilib. Statistikaya görə, nəşrlərdən 1965-i ingilis dilində, 176-sı fransız dilində, 107-si rus dilində, 40-ı alman dilində, 32-si erməni dilində, 26-sı türk dilində, 17-si Azərbaycan dilində, 5-i italyan dilində, 5-i fars dilində, 4-ü ərəb və Koreya dillərindədir.

Kanadanın kitabxana və arxivlərində mövcud olan 842 kitabdan 477-si çap kitabı, 334-ü elektron kitab, 17-si dissertasiya, 8-i mikroforma şəklindədir. Dissertasiyaların 11-i ingilis dilində, 6-sı fransız dilindədir.

Kataloqda Azərbaycan dilində olan 17 nəşr arasında "Qarabağın Alban abidələri", "Qarabağın elat dünyası", "Qarabağnamələr" və s. kitablar, Xalq artisti Səkinə İsmayılovanın ifasında "Qarabağ şikəstəsi"nin də daxil olduğu musiqi diskləri yer alıb.

# 114 YAŞLI "LEYLİ VƏ MƏCNUN"

# Müsəlman Şərqində ilk opera

1908-ci il yanvarın 12-də (yeni təqvimlə 25 yanvar) Bakıda, Hacı Zeynalabdin Tağıyevin teatrında (indiki Akademik Musiqili Teatrın binası) dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası səhnələşdirilib. Bununla Üzeyir bəy Azərbaycanda peşəkar bəstəkarlıq sənətinin təməlini qoydu. "Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü – muğam operası meydana gəldi. Bu, müsəlman Şərqində ilk opera idi.



Opera dahi Azərbaycan şairi Məhəmməd Füzulinin eyniadlı poemasına əsaslanır. Bəstəkarın fikrincə, Füzuli poemasının ruhu, lirikası məhz muğam kimi möhtəşəm bir musiqi ilə təcəssüm oluna bilər: "Mənim vəzifəm ancaq Füzuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, hadisələrin dramatik planını işləyib hazırlamaq idi...".

Ü.Hacıbəyli məqalələrindən birində "Leyli və Məcnun"un yaranma tarixindən bəhs edərək yazırdı ki, 1897-1898-ci illərdə, on üç yaşında olarkən, doğma şəhəri Şuşada "Məcnun Leylinin məzarı üstündə" adlı musiqili səhnəyə baxıb. Həmin səhnəni yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev Şuşanın tanınmış musiqiçilərinin köməyi ilə tamaşaya qoymuşdu. Məcnun rolunun ifaçısı Cabbar Qaryağdıoğlu idi. Üzeyir bəyin yazdığına görə, bu tamaşa onun yaddaşına həkk olunur. Qori Müəllimlər Seminariyasını bitirib Bakıya qayıdandan sonra o, məhz Füzulinin "Leyli və Məcnun"u əsasında opera yazmaq qərarına gəlir.

"Leyli və Məcnun" operasının ilk tamaşasına görkəmli aktyor və rejissor Hüseyn Ərəblinski quruluş verməmişdi. Dirijor yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev idi. Tamaşanın bədii tərtibatında publisist, mütəfəkkir, eyni zamanda istedadlı rəssam Əli bəy Hüseynzadənin rolu olmuşdu. İlk tamaşanı müşayiət edən orkestr Üzeyir bəyin seminariya yoldaşları olan həvəskar musiqiçilərdən ibarət idi. Muğam hissələrini ustad tarzənlər Qurban Pirimov və Şirin Axundov müşayiət edirdilər. Məcnun rolunun ilk ifaçısı tanınmış teatr və musiqi xadimi Hüseynqulu Sarabski idi.

Leyli rolunun ifaçısını tapmaq isə çox çətin idi. O dövrdə müsəlman qadınlarının səhnəyə çıxmasına yol verilmirdi, qadın rollarını kişilər ifa edirdi. İlk tamaşada Leyli rolunun ifası məlahətli səsə malik Fərəcov soyadlı bir gəncə tapşırıldı. Sonralar isə Leyli rolunda məşhur ifaçı Əhməd Ağdamski (Bədəlbəyli) çıxış etmişdi.

Bir əsrdən çoxdur "Leyli və Məcnun" operası səhnədədir. Bu dövr ərzində neçə-neçə müğənni və xanəndə Leyli və Məcnun rollarının gözəl ifaçıları kimi tanınıb. Məcnunlar, Leylilər nəsil-nəsil bir-birini əvəz edir. Əsər isə təravətini itirmir, Azərbaycan milli operasının inkişaf yolunu işıqlandırır...

# Səhnə, sənət kamı – həyat nakamı

## Ülvi Rəcəb Azərbaycan səhnəsinin parlaq simalarından olub

Azərbaycan səhnəsinin unudulmaz sənətkarlarından söz düşəndə ilk xatırlananlardan biri də Əməkdar artist Ülvi Rəcəbdir. Aktyor sənət və həyat üçün ötəri hesab olunan yaşda, ömrünün 35-ci ilində repressiya qurbanına çevrilsə də, zəngin sənət mirası yaradıb, sənətin şöhrət zirvəsinə yüksəlib.

Ülvi Molla Rəcəb oğlu Şaşıqzadə 9 yanvar 1903-cü ildə Gürcüstanın Batumi şəhəri yaxınlığındakı Canivri kəndində dünyaya gəlib. Milliyyəti acar olan Ülvinin babası Əhməd bəy keçmiş Suxumi knyazları nəslindəndir.

Atası Ülvini oxumaq üçün Türkiyəyə yola salır. O, İstanbul şəhərində yaşayan xalasının yanında qalır. Həmin ərəfədə atası vəfat edir. Bu dövrdə həm də I Dünya müharibəsi (1914-1918) başlamışdı. Ailənin maddi vəziyyəti çətinləşir və Ülvi təhsilini yarımçıq qoyaraq işləməyə başlayır.

Ülvi Rəcəb 1918-ci ildə Batumi şəhərinə qayıdır, teatrla maraqlanır. Şəhərdəki teatr kollektivlərindən biri ilə əməkdaşlıq edir. Bu ərəfədə Azərbaycanın tanınmış səhnə xadimi Hüseyn Ərəblinski öz truppası ilə Batumiyə gəlir. "Artistlər Cəmiyyəti"nin zalında "Otello" tamaşasını göstərir. 15 yaşlı Ülvi Rəcəb də tamaşaya baxırdı. H.Ərəblinskinin Otello obrazında çıxışı gənc teatr həvəskarının xoşuna gəlir. Tamaşanın nümayişi başa çatandan sonra H.Ərəblinski ilə görüşür, istəyini ona bildirir. Ülvi həmin qastrol zamanı xəstələnən aktyorları əvəz edir. Hətta "Arşın mal alan" operettasında Soltan bəy rolunda səhnəyə çıxır. Üzərinə düşən işin öhdəsindən bacarıqla gəlir. Onun ifasından H.Ərəblinski də məmnun qalır və Ülviyə "Sən gələcəkdə böyük aktyor olacaqsan" deyir.

Araşdırmalarda bildirilir ki, Ülvi Rəcəb 20 yaşında Tiflis Azərbaycan Teatrının aparıcı aktyorlarından olub. Yaratdığı obrazlar lirik, romantik üslubu ilə tamaşaçıların diqqətini çəkib. Teatrda tamaşaya qoyulan "Otello"da Otello, "Qaçaqlar"da Dərviş , "Şeyx Sənan"da Şeyx, "İblis"də İxtiyar, "Arşın mal alan"da Soltan bəy və başqa rollarda çıxış edib. Həmin dövrdə teatrın quruluşçu rejissoru olan Aleksandr Tuqanov Ülvi Rəcəbin potensialını yüksək qiymətləndirib. Onu baş rollarda görmək istədiyini bildirib. Beləliklə, bu gənc aktyor Abbas Mirzə Şərifzadədən sonra Hüseyn Cavidin əsərlərinin tamaşasında aparıcı obrazları yaradan aktyorlardan biri kimi tanınıb.

Teatrşünas, professor İlham Rəhimli Ülvi Rəcəbin sənət yolu barədə araşdırmasında yazır: "Milli teatr tariximizdə Şeyx Sənanı incə lirizmlə oynayan ilk aktyor Əməkdar artist Ülvi Rəcəb olub. Tiflis Azərbaycan Teatrından başlanan bu ənənəni o, 1925-ci ildən 1937-ci ilə qədər Bakıda Milli Dram Teatrının səhnəsində müxtəlif quruluşlarda daha böyük sənətkar vüsəti ilə canlandırıb...".

1924-cü ildə Bakıya dəvət olunan A.Tuqanov Akademik Milli Dram Teatrına baş rejissor təyin edilir. Bir müddət sonra Ülvi Rəcəbi öz yanına dəvət edir. Gənc aktyorun oynadığı ilk böyük rol Hamlet olur. Qeyd edək ki, o, Hamlet rolunu həm A.Tuqanovun (1926), həm də Sergey Mayorovun (1933) quruluşlarında oynayıb. Gənc aktyor teatrda eyni zamanda A.M.Şərifzadənin dublyoru kimi çıxış edib.

Ülvi Rəcəb səhnədə faciəvi, dramatik və mürəkkəb psixoloji personajlarla yanaşı, lirik qəhrəmanları da məharətlə oynaya bilib. Roldan-rola dəyişməyi özünəməxsus şəkildə bacaran aktyor Azərbaycan və Avropa dramaturqlarının əsərlərində yaratdığı obrazlarla tamaşaçıların qəlbində silinməz iz qoyub.

Sənətkarın V.Şekspirin "Romeo və Cülyetta" əsərinin tamaşasında Romeo rolunda çıxışı Milli Dram Teatrının ən parlaq baş qəhrəmanı kimi tanıtdırıb. Azərbaycan aktyorları arasında "psixoloji teatr" istiqamətinin əsasını qoyanlardan biri də Ülvi Rəcəb olub. Onun C.Cabbarlının "Sevil" tamaşasında yaratdığı Balaş rolu da sənətşünaslar tərəfindən yüksək dəyərləndirilib. Tamaşada SSRİ Xalq artisti Mərziyyə Davudova ilə tərəf-müqabil olaraq parlaq sənət örnəyi yaradıblar.

İstedadlı aktyorun yaradıcılığı yüksək qiymətləndirilir. O, 1933-cü ildə, 30 yaşında "Əməkdar artist" fəxri adına layiq görülür...

Azərbaycanda da mədəniyyətin, ziyalılığın məhv edilməsini qarşıya məqsəd qoyan 30-cu illərin repressiya bəlası istedad sahiblərini haqlamışdı. "Kommunist" qəzetinin 30 sentyabr 1937-ci il sayında dərc edilən məqalədə "Azərbaycan Dövlət Dram Teatrını burjua nasionalistlərinin əlaltılarından təmizləməli" kimi hökm böyük zələlətin qapını kəsdirməyindən xəbər verirdi. Məqalədə "düşmənlərin" siyahısında Əməkdar artist Ülvi Rəcəbin də adı çəkilmiş, haqqında belə yazılmışdı: "Yaradıcılığı bir qəpiyə dəyməyən bu adam... respublikanın Əməkdar artisti kimi şərəfli bir ada "nail" olmuşdur. O, xalq düşmənləri R.Axundov, Ə.Triniç, H.Nəzərli ilə sıx əlaqə saxlamış, xarici reaksion qəzetlər oxumuş, patifonda xarici plastinkalar çaldırmış, məişətcə pozulmuş, səhnəmizi Osmanlı, ərəb və fars sözləri ilə zibilləməyə çalışmış, gənc kadrların inkişafına mane olmuşdur...".



Beləliklə, milli teatrımızın görkəmli sənətkarı Ülvi Rəcəb 1937-ci ildə "xalq düşməni" adı ilə həbs edilir. Yaradıcılığının ən bəhrəli çağını yaşayan aktyor 1938-ci il yanvarın 2-də Bakıda güllələnir. Səhnə-sənət kamına çatan həyat nakamı Ülvi Rəcəbə ölümündən 18 il sonra, 1956-cı ildə bəraət verilir...

**Savalan Fərəcov**

# Azərbaycanlı alimin Rusiyada dərs vəsaitləri nəşr edilib

## Müasir rus ədəbiyyatının Azərbaycan konteksti də nəzərdən keçirilib

Tanınmış ədəbiyyatşünas və folklorşünas, Azərbaycan Universitetinin professoru Asif Hacıyevin Rusiya Federasiyasının ali təhsil müəssisələrinin tələbələri üçün yeni dərs vəsaitləri nəşr olunub.

Saratov şəhərində nəşr olunan filologiya ixtisası üzrə təhsil alan bakalavr və magistrantlar üçün "XX və XXI əsrlərin qovşağında rus nəsri. Əsas istiqamət və cərəyanlar" adlı tədris-metodik vəsaitdə müasir rus nəsrinin tarixi tipologiyası, mövzu və motivləri, müasir ədəbi prosesin ümumi səciyyəsi və əsas inkişaf meyilləri nəzərdən keçirilir. Həmçinin neorealizm, kütləvi və şəbəkə ədəbiyyatı, modernizm və postmodernizm, eləcə də rus postmodernizminin Azərbaycan konteksti tədqiq olunub. Vəsaitdə ikidillilik və rusdillilik, rus nəsrində "türk üslubu" da nəzərdən keçirilib.

"XX əsrin ikinci yarısı rus nəsri. Mifopoetika məsələləri" dərs vəsaiti isə rus və keçmiş postsovet xalqları ədəbi prosesinin mühüm hadisəsi olan mifopoetik nəsr yaradıcılığına həsr edilib. Dərs vəsaitində B.M.Şukşin, V.İ.Belov, V.P.Astafyev, V.Q.Rasputin, Y.V.Trifonov, F.A.Abramov, V.F.Tendryakov, V.S.Makanin, A.A.Kim, V.V.Orlov kimi rus yazıçılarının yaradıcılığında mif-folklor elementlərinin, ənənəvi semantik universalilərin və süjet invariantlarının rolu tədqiq olunub.

Rusiya ali təhsil və filoloji tədqiqat təcrübəsində ilk dəfə dərs vəsaitinə müasir rus ədəbiyyatının Azərbaycan konteksti və Azərbaycan məktəblərində milli mentalitetə və müasir sosial-mədəni mühitə uyğun tədrisi haqqında bölmələr daxil edilib. Eyni zamanda ilk dəfə müasir rus nəsrində orijinal "türk üslubu"nun mövcudluğu və bədii özünəməxsusluğu türk əsilli rusdilli yazıçıların konkret əsərlərinin təhlili əsasında təsbit olunub.

Dərs vəsaitləri Rusiya Federasiyasının ali təhsil müəssisələri üçün tədris resurslarının nəşri üzrə ixtisaslaşmış "Ali təhsil" nəşriyyatının təşəbbüsü və vəsaiti hesabına çap edilib.

Qeyd edək ki, professor Asif Hacıyevin Rusiya ilə yanaşı Almaniya, Türkiyə və İranda da rus ədəbiyyatına dərs vəsaiti və monoqrafiyaları da nəşr olunub.

# Cavad xanın qardaşı

## Fətəli bəy Hali Gəncəvinin şeirlər toplusu çapdan çıxıb

Xalqımızın qəhrəman oğlu Gəncə xanı Cavad xanın qardaşı Fətəli bəy Hali Gəncəvinin şeirləri çapdan çıxıb.

Şairin AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutundakı əlyazmadan götürülmüş şeirlər toplusuna onun lirik aşiqanə, nəsihətamiz şeirləri, mənzum məktubları daxil edilib.

Bu barədə Əlyazmalar İnstitutundan məlumat verilib.

Fətəli bəyin əsərlərini institutun icraçı direktoru filologiya elmləri doktoru Paşa Kərimov və böyük elmi işçi Hacı Rauf Şeyxzamanlı transliterasiya və tərtib edib, kitaba ön söz yazıblar. Fətəli bəyin fars dilində yazdığı şeirlərinin bədii tərcüməsi Paşa Kərimova məxsusdur. Kitabın elmi redaktoru professor, Əməkdar elm xadimi Xəlil Yusifli, redaktoru Mustafa Mailoğludur.

Fətəli bəy Cavad xanın ölümündən (1804) sonra çar Rusiyası qoşunlarına qarşı mübarizə aparıb. O, 1825-ci ildə Təbrizdə vəfat edib.

# Şaxələnən yaradıcılıq yollarında...

Ötən il Nizami Gəncəvinin yaradıcılıq irsinin təbliğində göstərdikləri xidmətlərə görə bir qrup elm, ədəbiyyat, incəsənət xadimi Mədəniyyət Nazirliyinin dahi şair və mütəfəkkirin 880 illiyi münasibətilə təsis etdiyi xatirə döş nişanı ilə təltif edildi. Dekabrın son iş günündə Milli Kitabxanada keçirilən mərasimdə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev tərəfindən yubiley nişanı təqdim edilənlər arasında Əməkdar artist, respublikamızın ilk və yeganə kontratenor səs tembrinə malik opera müğənnisi, Prezident təqaüdçüsü, Akademik Opera və Balet Teatrının solisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru İlham Nəzərov da var.



Tanınmış vokalçının bu mükafata layiq görülməsi təsadüfi deyildi. "Nizami Gəncəvi İli" çərçivəsində təşkil olunan çoxsaylı tədbirlərlə yanaşı, İ.Nəzərovun musiqi rəhbəri, musiqi redaktoru olduğu, eləcə müğənni kimi iştirak etdiyi bir sıra layihə və konsertlər də gerçəkləşdi. İlk növbədə müğənninin musiqi redaktoru olduğu Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə hazırlanmış "Eternity" ("Əbədilik") adlı musiqi albomunu qeyd etmək istərdim. Musiqi ictimaiyyəti tərəfindən maraqla qarşılanan albomda böyük şairimizin qəzəllərinə Ü.Hacıbəyli, Ə.Bədəlbəyli, A.Rzayeva, T.Quliyev, C.Cahangirov, F.Əmirov, S.İbrahimova, G.Abdullazadə, C.Allahverdiyev, D.Əliyevanın yazdığı 10-dan çox romansı Xalq və Əməkdar artistlər səsləndiriblər.

15 noyabrda Beynəlxalq Muğam Mərkəzində keçirilən və İ.Nəzərovun musiqi rəhbəri olduğu konsertdə Xalq artistləri Samir Cəfərov, Gülnaz İsmayılova, eləcə də sənətçinin özü də iştirak edərək operalardan ariya və arioza, romanslar ifa etdilər. İ.Nəzərovun Ü.Hacıbəylinin "Sənsiz", Ə.Bədəlbəylinin "Nizami" operasından ariya və arioza, Ə.Hüseynzadənin "Vəslin həvəsi" romansının ilk dəfə olaraq kontratenor səs tembri ilə ifa etməsi dinləyicilər tərəfindən böyük maraqla qarşılandı.

Əməkdar artistin pedaqoji fəaliyyətində "Nizami Gəncəvi İli" öz əksini tapıb. İfaçı şagird və tələbələrindən ibarət konsert proqramları təşkil edərək dahi şairin yubileyinə həsr olunan silsilə tədbirlərə öz töhfəsini verib.

Sənətçini fərqləndirən məqamlardan biri də onun yaradıcılığının çoxşaxəli olmasıdır. Vokalçı opera səhnə yaradıcılığı, konsert salonlarında çıxışları, pedaqoji fəaliyyəti ilə yanaşı, elmi yaradıcılıqla da məşğul olur. O, bir neçə il idi SSRİ Xalq artisti, dünya şöhrətli müğənni, bəstəkar Müslüm Maqomayevin həyat və yaradıcılığı haqqında elmi tədqiqat aparırdı. O, 2021-ci ildə müəllifi olduğu dissertasiyanı uğurla müdafiə edərək Ali Attestasiya Komissiyasının 24 dekabr tarixi qərarı ilə sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb. Bu səbəbdən yola saldığımız il İ.Nəzərovun yaradıcılığında xüsusilə müvəffəqiyyətli il olub. Müğənniyə sənət yolunda, eləcə də mədəniyyətimizin təbliğində göstərdiyi xidmətlərində yeni uğurlar arzulayırıq.

**Ayla Kərimova-Zəkəriyyə**
**musiqişünas**

# Sarı rəngin işığı

## Tanınmış rəngkar Tələt Şıxəliyevin sənət dünyası haqqında

Böyük sənətə gəlişi SSRİ məkanında həmyaşıdı Tahir Salahovun adı ilə bağlı olan "Sərt üslub"un yaranmasına təsadüf edən Tələt Şıxəliyev (1928-1987) çoxlarından fərqli olaraq zamanına görə çox geniş yayılmış bu cərəyanın əsiri olmadı. Başqa sözlə desək, əgər bir çoxları gənc həmyerlilərinin nümayiş etdirdiyi yeni estetikanı özləri üçün ideal hesab etdikləri halda, Kiyevdə ali təhsilini başa vurub Bakıya qayıdan Tələt özünəməxsus ifadə üslubunun axtarışına üstünlük verdi. Bu, gənc müəllifin bir rəngin bədii imkanlarını üzə çıxartmaq səylərində özünü göstəməkdə idi...



Bunun ilk təzahürünü rəssamın kubizm cərəyanı esetikasının üstünlük təşkil etdiyi mavi koloritli işlərdə görmək olardı. Rəssamın 1960-1970-ci illərdə ərsəyə gətirdiyi "Kaktusla natürmort" (1964), "Qəzet ilə natürmort" (1966), "Cərrahiyyə əməliyyatından əvvəl" (1967), "Onkoloqlar" (1967), "Qız güzgü ilə" (1968), "Qız qalası" (1971), "Akademik Yusif Məmmədəliyevin portreti" (1973), "Dünyanın təlatümü" (1977), "Qocaman müəllimə M.Bayraməlibəyovanın portreti", "Qadın ələk ilə", "Əməkdar artist K.Babiçevanın portreti" (hamısı 1970-ci illər) və s. tablolarında onun göy rəngə fərqli prizmadan bədii münasibətini görmək mümkündür. Bütünlükdə görünənləri şərti olaraq rəssamın yaradıcılığının kubizm cərəyanı ilə əlaqəli "mavi dövrü" də adlandırmaq olardı. Gözlərə dinclik bəxş edən bu rəngin ruhu duyğulandırıcı estetikaya bələməsindən uğurla istifadə edən müəllif müxtəlif janrlı bu əsərlərin mənəvi-psixoloji yükünün cəlbedici və təsirli olmasını əldə edə bilmişdi.



Lakin elə həmin illərdə onun bu mərhələnin işığında fərqli tapıntılara kökləndiyini də görmək mümkün idi. Qızılı-sarı koloritə üstünlük verildiyi "Mütaliə" (1975), "Analıq" (1976) və "Tap görüm" (1976) kimi tablolarda rəng coşğunluğu və yaxı oynaqlığının kətan səthinin həm də nisbi "aysberq"ə çevrildiyinə şahidlik etmək mümkün idi. Əslində, ərsəyə gətirilənlər sonradan rəssamın "tanınma nişanı"na çevriləcək yeni yaradıcılıq mərhələsinin ilk işartıları da hesab oluna bilərdi. Bununla belə, Tələt Şıxəliyevin yaradıcılığında kəskin dönüş kimi dəyərləndiriləcək görünənlər həm də "qızılı-sarı mərhələ"nin Xalq şairi Rəsul Rzanın 1960-1962-ci illərdə ərsəyə gətirilmiş məşhur "Rənglər" şeirlər silsiləsinə rəssam cavabı idi. İsti rənglə ifadə olunanların şeirlərlə birbaşa əlaqəsi olmasa da, onun əvvəlki soyuq mavi koloritin ardınca "isti"liyə meyillənməsi həm də rəngaltı mənanın hifz olunduğu "qızılı-sarı"nı şair düşüncələri ilə səsləşdirmək istəyinin görüntüsü sayıla bilərdi.

Etiraf edək ki, sətiraltı məna yükü sovet ideoloqları tərəfindən duyulan "Rənglər"in dolayısı təpkilərlə üz-üzə qalması qarşılığında "kətandan "boylanan" rəssam yaşantılarına ağız büzənlər də az deyildi. Buna baxmayaraq müəllif qızılı-sarı çalara etibar etməkdə israrlı idi. Çünki kimlərəsə monoxrom görünən, ancaq sovet-Azərbaycan rəssamlığı üçün yeni olan bu rəng qoşalaşmasında tamaşaçını özünə cəlb edə biləcək qeyri-adi bədii-mənəvi güc vardı. Rəssamın qənaətincə, şairin uzaq-yaxın keçmişdə yaşananlara "bədii güzgü" tutan "Ömürlük dustağın qısa yuxusu", "Torpağın səxavəti", "Van Qoqun "Günəbaxanlar"ı", "Məhəbbətin barmağa dolaşmış damğası", "Muzeydə mürgüləyən taxt" və "Cinayətin yaşıdı", eləcə də "Dolu dənli sünbül dənizi", "Şikəst bir övlad anasının bənizi", "Payını güclülər yemiş aclar", "Simlərin fəryadı", "Debüssinin "Kürən saçlar"ı və "Sallaqxana qapısından girən qafil öküzlər"i misralarında rənglərə çevrilməli məna-məzmun yükü kifayət qədər idi. Bu və silsilədə yer almış digər çoxsaylı və çoxqatlı şair düşüncələrindəki düşündürücü fikirlər ruhən "Abşeron məktəbi" rəssamlarına yaxın olan Tələt Şıxəliyev üçün təkanverici qaynaq oldu. Beləcə kifayət qədər tanınan şairin "söz boxçası"na yaradıcı nüfuz edən rəssam sonralar onun zamansızlığa qovuşan özünəməxsus estetikalı bədii irsinin yaradıcısı kimi tanındı.

Görkəmli fırça ustasının son yarım qərinəlik yaradıcılıq dövrünü əhatə edən bu tablolar əslində Azərbaycan rəngkarlığında zaman-zaman xatırlanacaq bir bədii hadisə oldu. Bu yöndəki uğurlarını 1976-cı ildə Bakıda, dörd il sonra isə Moskvada baş tutan ilk fərdi sərgisində nümayiş etdirən və əsl sənət xiridarlarının təqdirini qazanan müəllifin bundan sonrakı fəaliyyətində qızılı-sarı çalarlar aparıcı ifadə vasitəsinə çevrildi. Oynaq yaxılarla gerçəkləşən bu rənglərin müxəlif məna-məzmun daşıyıcısı kimi təqdimatı, əlbəttə ki, ilk növbədə Tələt Şıxəliyevin dünya təcrübəsi ilə milli bədii qaynaqlarımızı ustalıqla qoşalaşdırmasının və çox vaxt müxtəlif məzmunlu görüntüləri cəlbedici-duyğulandırıcı mənəvi qaynağa çevirə bilməsinin nəticəsi idi. Onun son dövr yaradıcılığını əhatə edən "Ailə", "Həkimin qəbulunda", "Oyun", "Qızım Şeyda", "Uşaq və pişik", "Gənc rəssam", "Xatirələr", "Ulağa minmiş oğlan", "Qızım yatır", "Xalq sənətkarı", "Kitab oxuyan qız", "Görüş", "Tikan çıxaran" və s. tablolarında bədii təxəyyül təəssüratı yaradan və çox vaxt adiliyi duyulan süjetlərin rəssam şərhində məlum həqiqətlərə özünəməxsus yanaşma görünməkdədir. Elə bunun nəticəsidir ki, məişət qayğıları ilə baş-başa qalmış qadının, Novruz oyunlarından həzz alan yeniyetmənin, xatirələrin qanadında yaşanmış günlərə qayıdan ağbirçək ananın, arzularına yuxusunda yetişən uşağın, şıltaqlığının tikanlı "nəticə"sini aradan qaldıran dəcəl oğlanın rəng səthindən "boylanan" bədii görüntülər tamaşaçı tərəfindən səmimiliyə və inandırıcılığa bələnmiş gerçəklik kimi qəbul olunmaqdadır. Çox vaxt əsas məna-məzmun daşıyıcısı olan qızılı-sarı çaların qovşağını kompozisiyanın dominantına çevirən rəssam onu digər rənglərlə əlaqələndirməklə kətan səthinin daşıdığı məna-məzmun yükünə düşündürücülük bəxş etmişdir...



Yekun olaraq demək lazımdır ki, Tələt Şıxəliyevin həm "mavi", həm də "qızılı-sarı" dövr yaradıcılığı formaların ekspressiyası və rəng tutumunun ifadəliliyinə görə həmkarları arasında seçilmişdir. Əvvəlcə soyuq, bir qədər sonra isə isti rənglərin sayagəlməz çalarlarını üzə çıxaran rəssamın, onları insanı duyğulandıracaq ovqat yaratmağa yönəldə bilməsi həsədaparıcıdır, desək, yanılmarıq. Həmin tablolarda hifz olunan ənənəvi psixoloji gərginliyi mavi-göy, eləcə də sarımtıl-boz və qızılı-qəhvəyi rəng çalarları ilə şərh edən rəssam bu koloritdə hifz olunan intizarı və gərginliyi yaddaqalan biçimdə əyanilәşdirə bilmişdir.

Azərbaycan rəngkarlığında özünəməxsus koloriti və yaxı manerası ilə seçilən, ən başlıcası isə ideoloji tələblərə qarşı durmağı bacaran Tələt Şıxəliyevin yaratdığı tablolarda isə məişət səhnələrinə belə yüksək poetik münasibət onun əsərlərinin ovqat daşıyıcılığını şərtləndirmişdir.



Qeyd etmək lazımdır ki, rəngkarlıqda sarı rəngi yüksək məqama qaldıran Rembrandtdan və onun ən təzadlı məna-məzmun daşıyıcılığını sözlə ("Rənglər" silsiləsi) ifadə edən Rəsul Rzadan sonra Tələt Şıxəliyev bu rəngi yeni, bir qədər də fərqli və təsirli məzmunla təqdim edə bilmişdir.

Müxtəlif janrlı əsərləri 1962-ci ildən sərgi salonlarında yer alan rəssamın 1987-ci ilə qədər davam edən yaradıcılığının sorağı zamanın axarında dünyanın bir çox ölkələrindən gəlmişdir. Bu gün onun əsərlərinin Bakı muzeyləri ilə yanaşı, həm də nüfuzlu Dövlət Tretyakov Qalereyasından və Şərq Xalqları İncəsənəti Muzeyindən (Moskva), eləcə də ABŞ və Avropa ölkələrinin, Asiya və Yaxın Şərqin məşhur kolleksiyalarından gəlməsi də bunun təsdiqidir...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

# Milli Xalça Muzeyində mühazirə

Azərbaycan Milli Xalça Muzeyində "Muzeyin kolleksiyaları necə qorunur?" adlı mühazirə keçirilib.

Mühazirə muzeyin eksponatların qorunması və qeydiyyatı üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Mira Məmmədxanovanın 65 illik yubileyi münasibətilə təşkil olunub.

Mira Məmmədxanova iştirakçılara muzeyin kolleksiyasındakı xalça məmulatları, bədii metal, parça, geyim, tikmə, çini, şüşə, ağac, kağız və zərgərlik məmulatlarının qorunub saxlanılması barədə ətraflı məlumat verib.



Bu sahədə 30 ildən artıq təcrübəsi olan baş fond mühafizi kolleksiyaların mühafizəsi işinin düzgün təşkilinin əhəmiyyətindən danışıb.

## Xatirə təqvimi — 10–13 yanvar

### Azərbaycan

**10 yanvar 1929** – Tanınmış dilçi alim, AMEA-nın müxbir üzvü Afad Məhəmməd oğlu Qurbanov (1929 – 26.9.2009) Qərbi Azərbaycanın (Ermənistan SSR) Kalinino rayonunun Qızıl Şəfəq kəndində doğulub. "Müasir Azərbaycan ədəbi dili", "Azərbaycan onomastikası" və s. kitabların müəllifidir.

**10 yanvar 1932** – Musiqişünas, professor Elmira Əbdülhəmid qızı Abasova (1932 – 12.2.2009) anadan olub. Üzeyir Hacıbəylinin yaradıcılığı, Cövdət Hacıyev, Rəşid Behbudov və başqa sənətkarlar haqqında kitabların müəllifidir. Konservatoriyanın (indiki Bakı Musiqi Akademiyası) rektoru (1977-1991) olub.

**10 yanvar 1937** – Əməkdar artist Nisə Heydər qızı Rzayeva (1937-2017) Naxçıvanda anadan olub. Mingəçevir Dövlət Dram Teatrında çalışıb.

**10 yanvar 1938** – Bəstəkar, Xalq artisti Elza İmaməddin qızı İbrahimova (1938 – 11.2.2012) Hacıqabulda anadan olub. "Yanan laylalar" operasının (libretto - Ramiz Heydər), populyar mahnıların ("Gecələr bulaq başı", "Sən yadıma düşəndə" və s.), romansların müəllifidir.

**10 yanvar 1942** – Əməkdar incəsənət xadimi Baba Fazil oğlu Rzayev (1942 – 2.12. 2014) Lerik rayonunun Çayrud kəndində doğulub. Lənkəran Dövlət Dram Teatrında rejissor, baş rejissor işləyib.

**10 yanvar 1953** – Əməkdar artist Sevil Rza qızı Xəlilova (1953 – 28.11.2011) Bakıda doğulub. Akademik Milli Dram Teatrında çalışıb, televiziya tamaşalarında ("Kişilər", "Yollar görüşəndə") maraqlı rollar oynayıb.

**10 yanvar 1962** – Xalq artisti Əjdər Əliabbas oğlu Sultanov (8.12.1909 – 1962) vəfat edib. Akademik Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**11 yanvar 1906** – Tarixçi, şərqşünas Əbdülkərim Əli oğlu Əlizadə (1906-1979) anadan olub.

**11 yanvar 1994** – Kinooperator Ramiz Əlirza oğlu Babayev (8.3.1940 – 1994) vəfat edib. 1957-ci ildən "Azərbaycanfilm" Kinostudiyasında işləyib.

**11 yanvar 1998** – Xalq artisti, tarzən Əliağa Eyvaz oğlu Quliyev (9.5.1917 – 1998) vəfat edib.

**11 yanvar 1999** – Əməkdar mədəniyyət işçisi Ramazan Həmzət oğlu Xəlilov (1901-1999) vəfat edib. Üzeyir Hacıbəylinin şəxsi katibi olub. 1975-ci ildən ömrünün sonunadək Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru işləyib.

**12 yanvar 1908** (yeni təqvimlə 25 yanvar) – Böyük bəstəkar Üzeyir Hacıbəylinin Məhəmməd Füzulinin poeması əsasında yazdığı "Leyli və Məcnun" operası Bakıda tamaşaya qoyulub. Bu, müsəlman Şərqində yaranan ilk opera idi. İlk tamaşaya aktyor və rejissor Hüseyn Ərəblinski quruluş vermişdi. Dirijor yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev idi. Orkestr Üzeyir bəyin seminariya yoldaşları olan musiqiçilərdən ibarət idi. Muğam hissələrini tarzənlər Qurban Pirimov və Şirin Axundov müşayiət edirdi. Məcnun rolunu Hüseynqulu Sarabski oynamışdı.

**12 yanvar 1925** – Şair Əlisoltan (Əlisoltan Camal oğlu Ağəliyev; 1925-1982) Quba rayonunun Susay kəndində doğulub.

**12 yanvar 1928** – Ədəbiyyatşünas və sənətşünas, professor Gülrux Sabir qızı Əlibəyli (1928 – 15.2.2016) anadan olub. Estetika və bədiilik məsələlərinə dair tədqiqat əsərlərinin, povestlərin müəllifidir.

**12 yanvar 1940** – Xalq artisti, mahir klarnet ifaçısı Vəli Nurbala oğlu Qədimov (1940 – 15.4.2009) Bakıda anadan olub.

**12 yanvar 1994** – Populyar müğənni Hüseynağa Məmməd oğlu Hadıyev (19.11.1946 – 1994) vəfat edib. "Dan ulduzu" ansamblının solisti olub.

**12 yanvar 2017** – Əməkdar artist, kontrabas ifaçısı İlyas Hüseyn oğlu Hüseynov (22.9.1924 – 2017) vəfat edib. Bakı Musiqi Akademiyasının professoru olub.

**12 yanvar 2021**– Əməkdar artist İsmayıl Ələkbərov (14.9.1939 – 2021) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub.

**13 yanvar 1894** – Xalq artisti Qriqori Mixayloviç Sorin (1894 – 10.1.1973) Rusiyanın Tver vilayətində anadan olub. Moskva teatrlarında çalışıb, 1946-cı ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktyoru olub.

**13 yanvar 1897** – Dövlət xadimi, publisist, alim Ruhulla Əli oğlu Axundov (1897 – 1.4.1938) Bakının Şüvəlan kəndində doğulub. Tarix, incəsənət, ədəbiyyata dair əsərlərin müəllifidir, ikicildlik rusca-Azərbaycanca lüğətin redaktoru olub. Azərbaycan Kommunist Partiyasının Birinci katibi (1925-1926) işləyib.

**13 yanvar 1909** – Tanınmış tarzən, xanəndə Şirulla İmanov (1909 – 4.2.1976) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub, M.Maqomayevin "Şah İsmayıl", Z.Hacıbəyovun "Aşıq Qərib", Ü.Hacıbəylinin "Şeyx Sənan" operalarında vokal və tar ifaçısı kimi çıxış edib.

**13 yanvar 1912** – Əməkdar artist, vokalçı Hacıbala Ağahüseyn oğlu Hüseynov (1912-1967) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub.

**13 yanvar 1945** – Əməkdar incəsənət xadimi, televiziya rejissoru Məhərrəm Əlisəftər oğlu Bədirzadə (1945 – 8.4.2021) Bakıda doğulub. 1971-ci ildən çalışdığı Azərbaycan Televiziyasında çoxsaylı tamaşa və filmlərə quruluş verib.

**13 yanvar 1992** – Əməkdar artist, vokalçı Kamal Həmid oğlu Kərimov (20.2.1925 – 1992) vəfat edib. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb.

**13 yanvar 1999** – Xalq artisti Barat Həbib qızı Şəkinskaya (28.6.1914 – 1999) vəfat edib. Akademik Milli Dram və Gəncə teatrlarında çalışıb. "Görüş", "O olmasın, bu olsun", "Onun bəlalı sevgisi" və s. filmlərdə maraqlı obrazlar yaradıb.

**13 yanvar 2001** – Əməkdar incəsənət xadimi, tanınmış heykəltəraş Eldar Heydər oğlu Zeynalov (22.8.1937– 2001) vəfat edib.

**13 yanvar 2003** – Xalq artisti Mirzə Əbdülcabbar oğlu Babayev (16.7.1913 - 2003) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Müğənnilik fəaliyyəti ilə yanaşı, filmlərdə ("Telefonçu qız", "Dərviş Parisi partladır" və s.) maraqlı obrazlar yaradıb.

### Dünya

**10 yanvar 1827** – İngilis tarixçisi, müqayisəli mifologiya üzrə görkəmli mütəxəssis Corc Vilyam Koks (George William Cox; 1827-1902) anadan olub.

**10 yanvar 1883** – Rus yazıçısı, publisist Aleksey Nikolayeviç Tolstoy (1883-1945) anadan olub. "Əzablı yollarla", "Mühacirlər" romanlarının, "Buratinonun macəraları" nağılının müəllifidir.

**10 yanvar 1905** – Özbək yazıçısı Aybək (Musa Daşməhəmmədov; 1905-1968) anadan olub. Əsərləri: "Nəvai", "Günəş sönməyəcək" romanları və s.

**11 yanvar 1875** – Rus bəstəkarı, pedaqoq Reynqold Moriseviç Qliyer (1875-1956) Kiyevdə doğulub. Bir müddət Bakıda çalışıb, "Şahsənəm" operasını yazıb. "Türk musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə" Azərbaycan SSR-in Xalq artisti (1934) adına layiq görülüb.

**12 yanvar 1628** – Fransız nağıl yazıçısı Şarl Perro (Charles Perrault, 1628-1703) anadan olub. Əsərləri: "Çəkməli pişik", "Zoluşka" və s.

**12 yanvar 1876** – Amerika yazıçısı Cek London (Jack London – John Griffith Chaney; 1876 – 22.11.1916) San-Fransiskoda doğulub. "Martin İden", "Dəmir daban", "Dəniz canavarı" və s. romanların müəllifidir.

**13 yanvar 1931** – Rus yazıçısı, kinodramaturq Arkadi Aleksandroviç Vayner (1931-2005) anadan olub. Qardaşı Georgi Vaynerlə birgə detektiv əsərlərin müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

№2 (1875)
12 yanvar 2022
www.medeniyyet.az

# Qarsda Sarıqamış şəhidlərinin xatirəsi anılıb





Türkiyədə Birinci Dünya müharibəsinin faciəli səhifəsinin – Sarıqamış hərəkatı zamanı həlak olanların xatirəsinə həsr edilmiş tədbirlər keçirilib. Sarıqamış şəhidlərinin anım mərasimlərindən biri yanvarın 8-də Qars şəhərindəki Cıbıltəpə Xizək Mərkəzində təşkil edilib. Tədbir çərçivəsində "Qarı yorğan edənlər" adlı qar heykəlinin açılışı olub.

Mərasimdə Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu, ailə və sosial xidmətlər naziri Dərya Yanık, Qars valisi Türkər Öksüz, bölgədəki hərbi birliklərin komandanları, millət vəkilləri, Bayburt, Muş və Ağrı universitetlərinin kollektivi, ictimaiyyət təmsilçiləri, ölkənin müxtəlif yerlərindən gələn insanlar iştirak ediblər.

"Qarı yorğan edənlər" heykəlinin önünə tər çiçəklər düzülüb, 107 il əvvəl şaxtalı hava səbəbindən baş verən faciənin qurbanları ehtiramla yad edilib.

Yanvarın 9-da isə Qars vilayətinin Sarıqamış rayonunda Sarıqamış şəhidlərinin xatirəsinə həsr olunan izdihamlı yürüş keçirilib. Yürüşdən sonra Soğanlı və Allahu-Əkbər dağlarının arasında yerləşən Kızılçubuk zirvəsində "Şəhidlərin izi ilə" şüarı altında anım mərasimi keçirilib. Mərasimdə Türkiyənin milli müdafiə naziri Hulusi Akar, gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu və digər rəsmilər çıxış ediblər.

Xatırladaq ki, Birinci Dünya müharibəsi zamanı Şərq cəbhəsində – Çar Rusiyası qoşunları ilə savaşan Osmanlı Ordusu – 1914-cü il dekabrın 22-dən 1915-ci il yanvarın 6-dək davam edən Sarıqamış əməliyyatında mürəkkəb hava şərtləri səbəbindən minlərlə itki verib. Faciədən 107 il keçsə də, Sarıqamış şəhidlərinin xatirəsi Türkiyə xalqı tərəfindən dərin ehtiramla anılır, müxtəlif mərasimlər təşkil edilir. Bu il Sarıqamış şəhidlərinin xatirəsinə "Qarı yorğan edənlər" heykəlinin yaradılması üçün Cıbıltəpə Xizək Mərkəzinə təxminən 200 yük maşını qar daşınıb.

**Mehparə Sultanova**
**Ankara**

## İstanbulda beynəlxalq dəb və tekstil sərgisi

Fevralın 9-11-də İstanbul şəhərində ənənəvi geyim, moda və tekstil sərgisi – "İstanbul Fashion Connection" keçiriləcək. Beynəlxalq sərgidə kişi, qadın və uşaq geyimlərinin və digər tekstil məhsullarının istehsalçıları, dizaynerləri, distribütorlar və bu sahədə fəaliyyət göstərən digər maraqlı tərəflər iştirak edəcəklər.




Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə Azərbaycan sahibkarları da sərgidə öz məhsullarını təqdim etmək və bu sahədə fəaliyyət göstərən müxtəlif ölkələrdən olan sahibkarlarla ikitərəfli görüşlər keçirmək imkanı əldə edəcəklər. KOBİA bununla bağlı tekstil sahəsində fəaliyyət göstərən sahibkarlara müraciət edib.

Sərgidə iştirak etmək istəyən və agentliyin xüsusi stendində öz məhsullarını nümayiş etdirməkdə maraqlı olan sahibkarlar KOBİA ilə əlaqə saxlaya bilərlər.

# "Qızıl qlobus"un sahibləri bəlli olub

2022-ci ildə audiovizual sənət dünyasının ilk mükafatlarının – "Qızıl qlobus"un təqdimat mərasimi keçirilib. Hollivud Xarici Jurnalistlər Birliyinin təsis etdiyi mükafatın 2021-ci il üzrə qalibləri yanvarın 9-da (Bakı vaxtilə ayın 10-da) onlayn formatda – təşkilatçıların sosial şəbəkələrdəki hesabları vasitəsilə elan olunub.



Rejissor Ceyn Kempionun (Yeni Zelandiya) "Köpəyin hökmranlığı" ("The Power of the Dog") filmi "Ən yaxşı dramatik film" nominasiyası üzrə "Qızıl qlobus"a layiq görülüb. Ekran əsəri Montana ştatında ranço sahibi olan xaraktercə fərqli iki qardaş haqqındadır. Kempionun bu kateqoriya üzrə rəqibləri Stiven Spilberqin "Qərb tərəfin əhvalatı" ("West Side Story") və Kennet Branın ("Belfast") filmləri olub.

"Ən yaxşı komediya və ya müzikl filmi" nominasiyası üzrə mükafatı Stiven Spilberqin "Qərb tərəfin əhvalatı" qazanıb. Kennet Branın tarixi "Belfast" dramı "Ən yaxşı ssenari", "Duna" filminə görə bəstəkar Hans Zimmer (Almaniya) "Filmə bəstənilən ən yaxşı musiqi" nominasiyalarının qalibi seçilib.




"Ən yaxşı aktyor" adını Vil Smit ("Kral Riçard" dramatik filmi), "Ən yaxşı aktrisa" adını isə Nikol Kidman ("Rikardo olmaq" dramatik filmi) qazanıb.

Nikol Kidman "Qızıl qlobus"a layiq görüldüyü ekran əsəri 1950-ci illərin populyar "Mən Lüsili sevirəm" ABŞ serialının çəkilişlərindən bəhs edir. Real həyatda həyat yoldaşı olmuş aktyorlar Lüsil Boll (Nikol Kidman) və Desi Arnas (Xavier Bardem) şəxsi problemlərini həll etməyə və ictimai həyatda öz yerlərini tapmağa çalışırlar.

"Komediya və ya müzikl janrında ən yaxşı aktrisa" nominasiyasının qalibi "Qərb tərəfin əhvalatı" filmindəki roluna görə amerikalı aktrisa Reyçel Zeqler olub. Film 1950-ci illərin Nyu-Yorkunda kriminal dəstənin qarşıdurmasından bəhs edir.




Yaponiyalı kinematoqrafçıların çəkdiyi "Maşınımın sükanına keç" ("Drive my car", rejissor Ryusuke Hamaquçi) bədii filmi ingilis dilində olmayan filmlər kateqoriyasında "Qızıl qlobus" mükafatına layiq görülüb. Xatırladaq ki, ekran əsəri ötən il Kann Film Festivalının ən yaxşı ssenari üzrə mükafatçısı da olub.

Amerikanın HBO kanalında yayımlanan "Varislər" serialı "Ən yaxşı televiziya serialı" nominasiyası üzrə "Qızıl qlobus" alıb.

Bundan əlavə, "Ən yaxşı animasiya filmi" və digər nominasiyalar üzrə qaliblər də elan olunub.

Qeyd edək ki, 1944-cü ildən etibarən təqdim edilən "Qızıl qlobus" Amerika kinosunun "Oskar"dan sonra ikinci nüfuzlu mükafatıdır. "Qızıl qlobus" eyni zamanda kinematoqrafçılar üçün "Oskar"a aparan əsas yol sayılır...

## Volqaboyu xalqlarının İslamı qəbul etməsinin 1100 illiyi münasibətilə

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi Volqa Bulqariyası xalqları tərəfindən İslam dininin qəbul edilməsinin 1100 illiyi şərəfinə tədbirlərə başladığını elan edib.



Təşkilat komitəsindən bildirilib ki, yanvarın 13-15-də Volqa Bulqariyası xalqlarının İslamı qəbul etməsinin 1100 illiyinə, habelə Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə hicrət etməsinin (622-ci il) 1400 illiyi şərəfinə şənliklərin təntənəli açılışı olacaq.

Tədbirlərə yanvarın 13-də Moskva Cümə məscidində start veriləcək. Əvvəlcə "Şihabuddin Mərcani qiraətləri" silsiləsindən "Rusiya İslamı: Rusiya müsəlmanlarının çoxəsrlik təcrübəsi" mövzusunda konfrans keçiriləcək. Konfransın "Tarix və arxeologiya", "İlahiyyat və fəlsəfə", "Politologiya və sosiologiya" adlı panel iclaslarında Orta əsrlərdə Rusiyada İslam tarixi üzrə aparıcı mütəxəssislər çıxış edəcəklər.

Yanvarın 14-də Moskva Cümə məscidində Rusiya müsəlmanlarının ruhani lideri müfti şeyx Ravil Qaynutdin Volqa Bulqariyası xalqları tərəfindən İslam dininin rəsmən qəbul edilməsinin 1100 illiyinə həsr edilmiş ibadət mərasimi keçirəcək. Tədbirlər çərçivəsində "Rusiyada İslam təfəkkürü: dirçəliş və yenidəndərk" seriyasından kitabların təqdimatı da keçiriləcək.

## Səhrada göydələn

Fransanın "Nicolas Laisne Associes" memarlıq firması "OXO Architectes" şirkəti ilə birgə səhrada göydələn layihəsini təqdim edib.

"Şaquli şəhər" adlanan göydələndə hotel, ofislər, mağazalar, restoranlar, yaşayış massivləri və muzeylər yerləşəcək.

Göydələndə meteoroloji stansiyanın da olması nəzərdə tutulub ki, bu da əsasən sərt səhra iqliminə ehtiyacla bağlıdır. Burada temperaturun kəskin dəyişməsini nəzərə alaraq, memarlar yağıntıların yığılması üçün xüsusi sistem hazırlayıblar. Onun böyük hissəsinin istilik və kanalizasiya, qalan



hissəsinin içməli və çoxsaylı yaşıllıq sahələrinin suvarılması üçün istifadə edilməsi planlaşdırılır.

"Şaquli şəhər"in ümumi tikinti sahəsi 780 min kvadratmetr təşkil edəcək.

## Zəlzələ Böyük Çin Səddinə zərər vurub

Çinin şimal-qərbindəki Çinhay vilayətində yanvarın 8-də baş vermiş zəlzələ nəticəsində Böyük Çin Səddinin Qansu vilayətindən keçən hissəsinə də zərər dəyib.

Zəlzələ episentrindən 114 kilometr məsafədə yerləşən Şandan rayonunda Min sülaləsinin hakimiyyət illərində (1368-1644-cü illər) tikilmiş Böyük Çin Səddində 2 metrlik hissədə çat əmələ gəlib, bəzi hissələr qopub yerə düşüb. Yerli hökumət tarixi abidəyə dəymiş ziyanı qiymətləndirməyi və nəticələrinin aradan qaldırılmasını tapşırıb.

Sarı dənizin Lyodun körfəzinin sahillərindən başlayıb, Çinin şimal sərhədləri boyunca uzanan və Qobi səhralarından keçən səddin ümumi uzunluğu 4250 ki-




lometrdən artıqdır. Böyük Çin Səddinin inşası e.ə. 221-ci ildə Çin imperatoru Çin Şi-Xuandi tərəfindən başladılıb və təxminən on ilə səddin yarışı inşa edilib. Sonralar bu müdafiə xəttinin tikintisi yüz illərlə davam etdirilib.

**Cavid**

## "Akvarel təəssüratları"

### Satış-sərgi üçün 80 əsər seçilib

Yanvarın 23-də Bakı Xətai Sənət Mərkəzində təşkil ediləcək "Akvarel təəssüratları" adlı satış-sərgiyə əsərlərin qəbulu başa çatıb.




Beynəlxalq Akvarel Cəmiyyətinin (İnternational Watercolor Society – İWS) 10 illik yubileyinə həsr olunan sərgi Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası, İWS Azərbaycan nümayəndəliyi və Xətai Sənət Mərkəzinin nəzdindəki "Xətai" akvarel qalereyasının təşkilatçılığı ilə reallaşacaq.

Xətai Sənət Mərkəzindən bildirilib ki, sərgidə iştirak etmək üçün 150-dən çox rəssamın 400-ə yaxın əsəri təqdim edilib. İlkin seçimlərdə 60 rəssam 80 əl işi ilə sərgidə iştirak etmək hüququ qazanıb.

Seçilmiş əsərlər 18 yanvar tarixinədək çərçivələnmiş vəziyyətdə satış-sərgiyə təhvil verilməlidir. Satış-sərginin iştirakçısı olacaq rəssamlara sertifikatlar təqdim ediləcək.

## Milli İncəsənət Muzeyinin "Bədii lövhələr"i davam edəcək

Azərbaycan Milli İncəsənət Muzeyi görkəmli rəssamların yaradıcılığını yaşatmaq və mədəni irsimizi yeni nəslə tanıtmaq məqsədilə "Bədii lövhələr" adlı layihəsini yeni mövsümdə də davam etdirəcək.




Muzeydən bildirilib ki, bu ay layihənin qəhrəmanı Azərbaycan təsviri sənətində koloritli yaradıcılığı ilə özünəməxsus yer tutan görkəmli fırça ustası, ötən il 100 illiyi qeyd olunan Xalq rəssamı Mikayıl Abdullayevdir.

Bu dəfə balacalar sənətkarın yaradıcılığına həsr olunmuş mühazirəni dinləyəcək, eləcə də təsviri sənətin müxtəlif növ və janrlarını kəşf edərək sənət əsərləri ilə söhbətə qərq olacaqlar. Uşaqlar "Öz tablonu yarat" adlı ustad dərsində rəssamın "Güllər" adlı tablosunun "step by step" imitasiyasını da yaradacaqlar.

Qeyd edək ki, Milli İncəsənət Muzeyi Azərbaycan rəngkarlığının ölməz korifeylərinin yaradıcılığını yaşatmaq və yeni nəslə tanıtmaq məqsədilə "Bədii lövhələr" adlı layihəyə 2019-cu ildə başlayıb. Yeni ildə də azyaşlı sənətsevərlər layihədə iştirak etməyə dəvətlidir. Təqdim olunan xidmətlərin yüksək keyfiyyətdə həyata keçirilməsi üçün öncədən qeydiyyatdan keçmək lazımdır.

## Dünya üzrə 310 milyondan çox

### Koronavirus rəsmi statistikada

Dünyada yeni növ koronavirusa (COVİD-19) yoluxanların sayı 310 milyon nəfərdən çoxdur. Ölənlərin sayı isə 5,5 milyonu keçib.

Bu barədə pandemiyanın onlayn statistikasını aparan "worldometers.info" saytı yanvarın 11-də məlumat yayıb.

Dünyada ən çox yoluxma halı (aparılmış COVİD testləri əsasında) ABŞ (62,6 milyon), Hindistan (35,8 milyon), Braziliya (22,5 milyon), Böyük Britaniya (14,6 milyon), Fransa (12,2 milyon), Rusiya (10,6 milyon) və Türkiyədə (10 milyon) qeydə alınıb.

Bir çox ölkələrdə COVİD testləri sayının heç də infeksiyanın yayılma tempi ilə ayaqlaşmadığını nəzərə alsaq – dünya üzrə real xəstə sayı, təbii ki, rəsmi statistikadan qat-qat çoxdur.

Xatırladaq ki, COVİD-19 infeksiyası 2019-cu ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Çin həmin ilin sonunda Dünya Səhiyyə Təşkilatını (DST) ölkədə naməlum virusun yayılması barədə məlumatlandırıb. DST 2020-ci il fevralın 11-də infeksiyanın adını COVİD-19 qoyub, martın 11-də isə pandemiya elan edib.

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin kollektivi tanınmış ictimai xadim, diplomat, publisist, XX əsr mühacirət irsimizin görkəmli tədqiqatçısı

**Ramiz Abutalıbovun**

vəfatı ilə bağlı mərhumun ailəsinə,
yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

"Mədəniyyət" qəzetinin kollektivi iş yoldaşları
Səbinə Məmmədovaya atası

**Əlibala Məmmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5067
**Sifariş:** 52
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.